# Koronavirusa yoluxanların sayı 5 mini ötüb

21 nəfər vəfat edib, 2319 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 5223 yeni yoluxma faktı qeydə alınıb, 2319 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 663 693 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 627 342 nəfər müalicə olunaraq sağalıb, 8 755 nəfər vəfat edib, aktiv xəstə sayı 27 596 nəfərdir.



## Azərbaycanda velosiped yolları müəyyən edilir

**Azərbaycan qanunvericiliyinə "velosiped zolağı" və "velosiped yolu" anlayışları əlavə edilir.**

Bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsində əksini tapıb. Dəyişiklikdə qeyd olunur ki, velosiped zolağı yolun hərəkət hissəsinin velosipedlərin hərəkəti üçün nəzərdə tutulmuş, uzununa nişanlanma xətti ilə ayrılmış hissəsidir.



# Qanun layihəsi parlamentə daxil olub

Türkiyə Böyük Millət Məclisi də Şuşa Bəyannaməsini təsdiqləyəcək

**Türkiyə ilə Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsinin təsdiqlənməsinin uyğun olduğuna dair qanun layihəsi təklifi Türkiyə Böyük Millət Məclisinə (TBMM) təqdim edilib.**

TBMM-nin sədri Mustafa Şentopun imzası ilə parlamentə təqdim olunan qanun layihəsi təklifinin işlənilməsi Türkiyə parlamentinin Xarici İşlər Komissiyasına həvalə edilib.

Bildirilir ki, Türkiyə Böyük Millət Məclisinin Xarici İşlər Komissiyası adıçəkilən qanun layihəsi təklifini fevralın 3-də müzakirəyə çıxaracaq.

*Qeyd edək ki, Azərbaycan Milli Məclisi "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsini fevralın 1-də təsdiqləyib.*


❐ № 19 (5541), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 2 fevral 2022-ci il (çərşənbə)




## Zakir Həsənov Türkiyədə möhtəşəm qarşılandı

Bakı-Ankara hərbi planının ümumi ştrixləri müzakirə mövzusu olub

**Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov qardaş ölkənin Milli müdafiə naziri Hulusi Akarla görüşüb.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, görüşdən əvvəl təntənəli qarşılama mərasimi olub. Hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib, dövlət himnləri səsləndirilib. Zakir Həsənov şərəf kitabını imzalayıb. Daha sonra nümayəndə heyətlərinin də iştirakı ilə görüş olub.

(səh.3)

# Parlament Şuşa Bəyannaməsini təsdiqlədi





Bununla Azərbaycan hüquqi baxımdan da qardaş Türkiyə ilə müttəfiq oldu

**Milli Məclis Azərbaycanla Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsi təsdiqləndi. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edildi. Bununla Azərbaycan hüquqi baxımdan da qardaş Türkiyə ilə müttəfiq oldu.**

Bu sənədə görə, iki qardaş ölkədən birinin ərazisinə hücum və təhlükə olarsa, digər ölkə rəsmən hərbi dəstək verə bilər. Sənədi təqdim edən millət vəkili Səməd Seyidov bildirib ki, Azərbaycanın ürəyi Türkiyə ilə döyünür. Deputat deyib ki, bu, Azərbaycan dövlətçiliyinin ən mühüm sənədlərindən biridir: "Regionda yaradılan yeni reallığın qorunması istiqamətində ən mühüm sənəd kimi qiymətləndirilməlidir. Şuşa Bəyannaməsi azad olunmuş Qarabağın, Azərbaycanın gələcəyini təmin edən sənədlərdən biridir".

(səh.2)

## Sənəd parlamentdə təsdiq edilib

Azərbaycan vətəndaşları Serbiyaya vizasız gedə biləcəklər



**Azərbaycan vətəndaşları Serbiyaya vizasız gedə biləcəklər.**

Trend-in məlumatına görə, Milli Məclisin bu gün keçirilən plenar iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi müzakirəyə çıxarılıb.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq təsdiq edilib.



## ABŞ Türkiyə-Ermənistan dialoqunda rol oynamağa hazırdır

**"ABŞ Türkiyə-Ermənistan arasında barışığın təbliğində də rol oynamağa hazırdır. Biz hər iki ölkənin diplomatiya və dialoq qurmasını alqışlayırıq".**

APA-nın xəbərinə görə, bunu ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid "Caspian Policy Center"in təşkil etdiyi "ABŞ-Xəzər Diplomatik Münasibətlərinin 30 ili" adlı vebinarda çıxışı zamanı deyib.

O, Ermənistan və Türkiyə xüsusi nümayəndələrinin yanvarda keçirilən birinci görüşündən mütəəssir olduqlarını vurğulayıb.

"Türkiyə-Ermənistan dialoqu regional sabitliyi artırmaq və region üçün daha firavan gələcək yaratmaq potensialına malikdir", - Donfrid qeyd edib.

# Deputatlar da narazıdır

Parklanma ilə bağlı cərimələr ciddi problemlər yaradacaq

**Azərbaycanda parklanma qaydalarının pozulmasına görə cərimələrin iki dəfə artırılması barədə qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib.**

Dəyişikliklə əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər vasitələrin parklanmasına görə cərimə 10 manatdan 20 manata qaldırılıb. Həmçinin, kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin parklanmasına, habelə sərbəst parklanmaya maneəlr yaradılmasına görə də cərimələr artırılıb. Spiker Sahibə Qafarova bildirib ki, ikinci oxunuşda qanun layihəsi barədə çıxış etmək istəyən deputatlar və Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli ora dəvət olunsun.

(səh.3)



## Gürcüstanda "Yaşıl pasport" ləğv olunub

**Gürcüstanda "COVID-19"la bağlı "Yaşıl pasport" tələbi bu gündən ləğv olunub.**

Bu barədə Gürcüstan hökumətinin Dövlət Qurumlararası Koordinasiya Şurası qərar qəbul edib.

Qərara əsasən, bu sənəddən yalnız xarici ölkələrə səfərlər zamanı istifadə olunacaq.

*Qeyd edək ki, qonşu ölkədə "Yaşıl pasport"lar ötən ilin dekabrın 1-dən etibarən tətbiq olunub.*

## 500 manat azdır

Sahibsiz heyvanlara rəhmsiz davranışa görə cərimələrin məbləği artırıla bilər



**"Sahibsiz heyvanlara rəhmsiz rəftar edənlərə qarşı cərimələr tətbiq edilir. Artıq həmin cərimələrin məbləğinin artırılması ilə bağlı layihə hazırlanıb".**

Bu fikirləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə "Ekspert saatı"nda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, İnzibati Xətalar Məcəlləsinə görə sahibsiz heyvanlara rəhmsiz rəftar edənlərə qarşı 500 manat məbləğində cərimə tətbiq olunur: "Sosial şəbəkədə dəfələrlə heyvanlara qarşı kobud rəftarların şahidi olmuşuq. Bu hərəkətin qarşılığında 500 manat azdır. Ona görə də cərimələrin bir neçə dəfə artırılması, digər ağır məsuliyyətin təyin olunması üçün ölkədaxili razılaşma üçün müvafiq rəylərin alınmasına təqdim edilib".



## Corc Soros hələ tükənməyib

O, indi də Çində hakimiyyət dəyişikliyini vacib sayır

(səh.5)

## Yazıçı deputatın fikirlərini dəstəklədi

Kino sənayesinə ayrılan pullar hara gedir, hansı formada xərclənir, bilinmir

(səh.3)



# Parlament Şuşa Bəyannaməsini təsdiqlədi

## Bununla Azərbaycan hüquqi baxımdan da qardaş Türkiyə ilə müttəfiq oldu





### "Bölgədə qarşıdurma tamamilə aradan qaldırılır, heç kim Azərbaycan-Türkiyə ordusu ilə qarşı-qarşıya gəlmək istəməz"

İsmayıl Qocayev

**Milli Məclis Azərbaycanla Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsini təsdiqlədi. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edildi. Bununla Azərbaycan hüquqi baxımdan da qardaş Türkiyə ilə müttəfiq oldu.**

Bu sənədə görə, iki qardaş ölkədən birinin ərazisinə hücum və təhlükə olarsa, digər ölkə rəsmən hərbi dəstək verə bilər. Sənədi təqdim edən millət vəkili Səməd Seyidov bildirib ki, Azərbaycanın ürəyi Türkiyə ilə döyünür. Deputat deyib ki, bu, Azərbaycan dövlətçiliyinin ən mühüm sənədlərindən biridir: "Regionda yaradılan yeni reallığın qorunması istiqamətində ən mühüm sənəd kimi qiymətləndirilməlidir. Şuşa Bəyannaməsi azad olunmuş Qarabağın, Azərbaycanın gələcəyini təmin edən sənədlərdən biridir".

**Spiker Sahibə Qafarova da vurğuladı ki, Səməd Seyidov hər bir deputatın, azərbaycanlının mövqeyini ifadə edib:** "Biz 6-cı çağırış Milli Məclis üzvləri kimi çox xoşbəxtik ki, Şuşa Bəyannaməsini təsdiqləmək bizə nəsib oldu". Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Şuşa Bəyannaməsi regionda sülhü gücləndirməyə xidmət edir. Onun sözlərinə görə, Şuşa Bəyannaməsi dövlətlərin bir-biri ilə yalnız strateji maraqlarını əks etdirən sənəd olmayıb. Bu, şəhidlərin canı və qanından yoğrulan hərbi-siyasi, ordu müqaviləsidir: "Sənəd bir dövlətə hücum zamanı ikinci dövlətin onun müdafiəsinə qoşulacağını təsbit etməklə, təkcə bizim bölgəmizə deyil, eləcə də təhlükə yaranarsa, Azərbaycan ordu qüvvələrinin Türkiyə sərhədlərinin keşiyini çəkməyə hazır olduğunu nəzərdə tutur. Şuşa Bəyannaməsini imzalamaqla, Prezident İlham Əliyev Qarabağı əsrlər boyu savaş meydanı kimi saxlamağa yox, təhlükəsizlik və sabitlik ünvanına çevirməyə hədəfləndiyini dünyaya nümayiş etdirir. Bu, Qarabağın sabitlik və sülh ünvanı olması, Azərbaycanın təhlükəsizliyinin ayrılmaz hissəsi olmaqla yanaşı, Cənubi Qafqazda və yaşadığımız qitədə sülhə təminat verən ən böyük aktdır. Ona görə də bəyannaməni 3-cü ölkələrə qarşı yönəltmək, onu region dövlətlərinə qarşı ərazi iddiası kimi xarakterizə etmək yanlışdır". Z.Oruc vurğulayıb ki, Şuşa Bəyannaməsinin bütün müddəaları regionda sülhü və təhlükəsizliyi gücləndirməyə xidmət edir: "Şuşa Bəyannaməsi Qarabağda sülh içində yaşamaq istəyən bütün xalqlara təhlükəsizlik təminatı deməkdir. Bu razılaşma bütün dövrlər üçün qüvvədədir". Ekspertlərin fikrincə, Bakı və Ankaranın bəyannaməyə daxil edilən hərbi məsələlərlə bağlı planları var. Mümkündür ki, iki ölkənin müdafiə nazirləri atılacaq addımları müzakirə edəcəklər.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, Şuşa Bəyannaməsi zamana və məkana görə dönəmin ən böyük, müstəsna müqaviləsidir. Ekspertin qənaətincə, müqavilə dövlətçiliyimizin bir çox mühüm məqamları ilə müqayisə olunacaq qədər önəm kəsb edir:** "Dövlətçiliyimizin möhkəm təməllər üzərində qurulmasını təmin edən əsas saziş 1994-cü ilin "Əsrin müqaviləsi" olub. Şuşa Bəyannaməsi isə Azərbaycanın təhlükəsizliyi baxımından ən vacib sənəddir. Bəyannamə bundan sonrakı bütün dövrlərdə tətbiq olunacaq. Sənədin parlamentdə ratifikasiya olunması Cənubi Qafqazın təhlükəsizliyi prizmasından böyük önəm daşıyır. Türkiyə ilə hərbi müttəfiqlik ölkəmizin təhlükəsizlik arealının böyüməsi, daha ciddi şəkildə müdafiə olunması və bütövlükdə regionun mühafizəsi çərçivəsində mütərəqqi addımdır. Müqavilə nəinki regional təhdidlərin qarşısını alır, eyni zamanda dövlətimizin hücumda olmasını və diktə etməsini daim təmin edir. Azərbaycan bundan sonra bölgədə aparıcı mövqedə qalacaq. Şuşa Bəyannaməsi bölgədə qarşıdurma riskini tamamilə aradan qaldırır. Heç kim Azərbaycan-Türkiyə ordusu ilə qarşı-qarşıya gəlmək istəməz. Bu həm də ölkəmizə qarşı ərazi iddiaları və revanşist təşəbbüslərə sarsıdıcı zərbə vurmuş oldu. Bəyannamə regionda əməkdaşlıqdan başqa yol qoymur".



# "Danışıqlar beynəlxalq hüquqa uyğun aparılmalıdır"

## Azərbaycan Prezidentinin köməkçisi Ermənistanla sülh sazişinin şərtlərini açıqlayıb

**Hərbi işğal faktı sona çatıb və Azərbaycan güc tətbiq etməklə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsinə dair yanlış nümunəyə son verib.**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Caspian Policy Center"in təşkil etdiyi "ABŞ-Xəzər Diplomatik Münasibətlərinin 30 ili" adlı vebinarda deyib.

O bildirib ki, Azərbaycan sülh gündəliyini izləyir və bu gündəlik qonşu və tərəfdaş ölkələrlə dinc əlaqələrin yaradılması mesajıdır.

H. Hacıyev vurğulayıb ki, Azərbaycan tərəfdaş və qonşu ölkələrlə birlikdə Cənubi Qafqazın münaqişə və müharibələrdən azad regiona çevrilməsi istiqamətində fəaliyyət göstərir və regionun parçalanmadan inteqrasiyaya, qarşılıqlı faydalı əlaqələrə əsaslanan regional əməkdaşlığa yönəlməsinə çalışır.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasına dair danışıqlar beynəlxalq hüquqa uyğun aparılmalıdır: "Bu saziş beynəlxalq hüququn fundamental norma və prinsiplərinə, xüsusilə də ərazi bütövlüyü və ölkələrin suverenliyi prinsiplərinə əsaslanmalıdır. Regionun yeni brendinq strategiyasına ehtiyacı var. Azərbaycan inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun inşası üçün öz rolunu oynamağa hazırdır. Biz burada ABŞ-ı vacib tərəfdaş kimi görürük".

Prezidentin köməkçisi onu da qeyd edib ki, regionda açılacaq yeni dəhlizlər, xüsusilə də Zəngəzur dəhlizi Ermənistanı blokadadan çıxara və geniş quru əlaqələri olan ölkəyə çevrilə bilər: "Bizim Mərkəzi Asiyadan olan tərəfdaşlarımız da Zəngəzur dəhlizindən faydalana bilərlər. Amma Zəngəzur dəhlizi bizim qonşu Gürcüstanla regionda yaratdığımız digər potensial dəhlizləri istisna etmir".

H. Hacıyev əlavə edib ki, Ermənistan regional əməkdaşlığın rol modeli olan və hörmətə əsaslanan qarşılıqlı faydalı Gürcüstan-Azərbaycan əməkdaşlığından öyrənə və bu əməkdaşlıq əlaqələrinə qoşularaq fayda əldə edə bilər.

# Qriqoryan BMT çətirindən qalxan kimi istifadə edir

## Qurumun öz nizamnaməsini pozan əməkdaşı ilə bağlı tədbir görməsi hələ də gözlənti olaraq qalır



**BMT-nin İnkişaf Proqramının Şimali Makedoniya üzrə Rezident Nümayəndəsi Armen Qriqoryandır. O, 2021-ci ilin 11 oktyabr tarixində bu vəzifəyə təyin olunub. Armen 2015-ci ildən 2021-ci ilə - Şimali Makedoniyaya gedənə qədər BMT İnkişaf Proqramının İstanbul Regional Mərkəzində çalışıb.**

Tərcümeyi-halına baxdıqda BMT-də "fəal əməkdaşlardan" olduğu görünür. Problem onun erməni olmasında yox, BMT-nin əməkdaşı olduğu halda Azərbaycan və Türkiyəyə qarşı təbliğat aparmasındadır.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, 44 günlük müharibədə Armen Qriqoryan sosial şəbəkələrdə aktiv şəkildə erməniləri müdafiə edib. Azərbaycan və Türkiyə əleyhinə kampaniya aparıb. Analitik vurğulayıb ki, müharibədən öncə isə qondarma rejimə səfərləri təbliğ edən materiallar yayımlayıb:** "Armen Qriqoryan bir erməni kimi bunu edə bilər, amma BMT əməkdaşı kimi yox. Birincisi, bu, təşkilatın əməkdaşları üçün nəzərdə tutduğu etik kodeksə ziddir. Kodeksdə bildirilir ki, "BMT İnkişaf Proqramında etika prinsipial olaraq, xidmət etdiyimiz ictimaiyyətin maraqlarını şəxsi maraqlarımızdan üstün tutmamaqdır". İkincisi, qurumun Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı 4 qətnaməsi var idi. Təşkilat əməkdaşı isə nəinki bu qətnamələri diqqətə almır, əksinə, Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını dəstəkləyir, bununla bağlı təbliğat aparır".

*A.Nərimanlı vurğulayıb ki, Qriqoryan qurumun prinsiplərinə zidd hərəkət etsə də, onunla bağlı tədbir görülməyib:* "Qriqoryanın əməkdaşı olduğu təşkilat prinsiplərini pozmasından sonra gözlənilən idi ki, onun fəaliyyətinə imkan verilməsin. Yaxud ən azından hansısa tədbir görülsün. Lakin müharibədən sonra Qriqoryanın BMT-də vəzifəsi böyüdüldü. İstanbulda müşavir idisə, Şimali Makedoniyada Rezident Nümayəndə təyin olundu. Qriqoryan BMT çətirindən qalxan kimi istifadə edərək Azərbaycan və Türkiyəyə qarşı fəaliyyətini qaldığı yerdən davam etdirir. Qurumun öz nizamnaməsini pozan əməkdaşı ilə bağlı tədbir görməsi hələ də gözlənti olaraq qalır. Azərbaycan və Türkiyənin qurumdakı nümayəndəliyi bu məsələni diqqətdə saxlamalı, ən azı Armenin fəaliyyətinin araşdırılmasını tələb etməlidir".

**İsmayıl**



# Millət vəkilləri parlamentdə vacib təkliflər səsləndirdi

## Çoxmənzilli binaların saxlanması və xidmət tarifləri dəqiqləşməlidir

**Dünən Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib. Parlamentin sədri Sahibə Qafarova yaz sessiyasını açıq elan etdikdən sonra Dövlət Himni səsləndirilib. Deputatların cari mövzularla bağlı çıxışlarından sonra gündəlikdəki 12 qanun layihəsinin müzakirələri başlanıb. İclas zamanı maraqlı təkliflər səsləndirilib.**

**"Parlament bu sahədə məsuliyyəti bölüşəcək"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, Azərbaycan Respublikasına xarici hərbi qüvvələrin dəvət olunması, yaxud Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin ölkədən kənara göndərilməsi ilə bağlı qanunun qəbuluna ehtiyac var. Deputatın fikrincə, bu məsələlər ayrılıqda qanunvericiliklə tənzimlənməlidir:** "Xaricdən dəvət olunan hərbi qüvvələrin ölkədə qalmasına dair müvəqqəti müddət necə olmalıdır? Bununla bağlı icazə necə olmalıdır? Bu gün biz Şuşa Bəyannaməsini təsdiq edəcəyik, müəyyən beynəlxalq öhdəliklərimiz olacaq. Burada hərbi yardımdan da söhbət gedir. Ona görə də bu məsələləri qanunvericiliklə tənzimləmək lazımdır. Bu həm də Azərbaycanı, dövlət başçısını kənar təzyiqlərdən qorumağa imkan yaradacaq, parlament bu sahədə məsuliyyəti bölüşəcək".

**"Siyasi partiyalar haqqında" yeni qanun hazırlanır"**

**Deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bildirib ki, "Siyasi partiyalar haqqında" yeni qanun hazırlanır, üzərində iş gedir:** "Məndə də bu barədə məlumat var". F.Ağamalı deyib ki, bu qanunun da yaz sessiyasında qəbuluna ehtiyac var. Millət vəkili Siyavuş Novruzov da "Siyasi partiyalar haqqında" yeni qanunun qəbuluna ehtiyac olduğunu söyləyib: "Hazırkı qanun siyasi həyatı tam əhatə etmir. Partiyaların qeydiyyatı, maliyyələşməsi, seçki qərargahlarının yaradılması məsələsi yeni qanunda əksini tapıb. Əhalinin də sayı artıb, bu da nəzərə alınmalıdır. Hazırda siyasi partiya bir məhəllədən 100 səs toplayıb, qeydiyyatdan keçə bilər. Digər tərəfdən, partiyalara ianələrin köçürülməsi onlayn qaydada həyata keçirilməlidir. Bilinsin ki, partiyalara kim pul köçürür. Xaricdə partiyaların tərəfdarlarının sayı köçürülən pulla ölçülür".

**"Kür çayında balıq tapmaq mümkün deyil"**

**Deputat Naqif Həmzəyev isə "Ovçuluq haqqında" qanuna yenidən baxılmasını təklif edib:** "Bu gün Kür çayında balıq tapmaq mümkün deyil. Qanunsuz balıq ovu ilə məşğul olan dəstələr var, partlayıcılar ilə balıq ovlayırlar. Digər tərəfdən, əcnəbilərin ölkədə qanunsuz ovla məşğul olmasına görə cərimələr çox aşağıdır".

**"Qəbiristanlıqlar bələdiyyələrə verilsin"**

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qəbiristanlıqların bələdiyyələrə verilməsini təklif edib: "Nazirlər Kabineti nümunəvi qəbiristanlıqların 3 aya bələdiyyələrə verilməsi barədə qərar qəbul etmişdi, bu günə qədər bu qərar icra olunmur. Bu qərarın icrası təmin olunmalıdır".

**"Rəqabət Məcəlləsi" qəbul olunmalıdır"**

**Milli Məclisdə Rəqabət, Büdcə və Bank məcəllələrinin qəbulu təklif edilib.** Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bildirib ki, Azərbaycanın 2022-2026-cı dövrdə sosial-iqtisadi inkişafına dair strategiya ilə bağlı sənəd qəbul olunacaq: "Bir il ərzində həmin sənədləri qəbul etsək, qarşıdakı illərdə neftdən asılılığın azaldılması, dayanıqlı inkişafın təmin edilməsi üçün dayanıqlı qanunvericilik bazasının formalaşdırılmasını təmin edəcək. Yeni dövr bir aydan sonra neftin qiymətinin necə olacağını proqnozlaşdırmağa imkan vermir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi də yeni bir sənəd hazırlayıb və bu sənəd də parlamentin müvafiq qurumları ilə müzakirə olunacaq".

**"1 kvadratmetrə görə 1 manat alırlar"**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, çoxmənzilli binaların saxlanması və xidmət tarifləri dəqiqləşməlidir.** Millət vəkili qeyd edib ki, bəzi binalarda xidmət haqqı 1 kvadratmetrə görə 30 qəpikdən 1 manata qədər, bəzən isə 1 manatdan yuxarı olur: "Bu tariflərin nəyin əsasında müəyyən edildiyi məlum deyil. Qanunvericilikdə bu məsələyə aydınlıq gətirilməlidir. Tariflərin müəyyən edilməsinin normaları təyin edilməlidir və xidmətin keyfiyyəti yoxlanılmalıdır". M.Quliyev həmçinin mənzil istismar sahələrinin funksiyalarının genişləndirilməsini və onların bələdiyyələrin tərkibinə verilməsini təklif edib.

**"Süni qiymət artımı ilə bağlı qanunvericiliyə əlavələr..."**

**Deputat Vüqar Bayramov deyib ki, Azərbaycanda "Sosial Rifah" Məcəlləsinin qəbul edilməsinə ehtiyac var:** "Bir çox Avropa ölkələrində bu cür məcəllələr var. Məcəllə Azərbaycanda həyata keçirilən sosial siyasətin fəlsəfəsinə uyğun olar və ölkə Prezidentinin sosial islahatlarının qanunvericilik tərəfindən dəstəklənməsi üçün əhəmiyyətli ola bilər". V.Bayramov həmçinin süni qiymət artımı ilə mübarizə istiqamətində qanunvericiliyə əlavələrin olmasını təklif edib.

**İsmayıl Qocayev**

# Deputatlar da narazıdır

## Parklanma ilə bağlı cərimələr ciddi problemlər yaradacaq



"Bakıdan Şamaxıya qədər yollar sarı xətdir. İndi necə edək, Bakıdan Şamaxıya qədər yolda avtomobili saxlamayaq?"

İsmayıl Qocayev

**Azərbaycanda parklanma qaydalarının pozulmasına görə cərimələrin iki dəfə artırılması barədə qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib.**

Dəyişikliklə əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər vasitələrin parklanmasına görə cərimə 10 manatdan 20 manata qaldırılıb. Həmçinin, kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin parklanmasına, habelə sərbəst parklanmaya maneələr yaradılmasına görə də cərimələr artırılıb. Spiker Sahibə Qafarova bildirib ki, ikinci oxunuşda qanun layihəsi barədə çıxış etmək istəyən deputatlar və Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli ora dəvət olunsun. S.Qafarova birinci vitse-spiker Əli Hüseynliyə iclasda sualları olan deputatların və V.Kərimlinin iştirakını təmin etməyi tapşırıb. İclasda bəzi deputatlar parklanmadan və cərimələrin iki dəfə artırılmasından şikayət ediblər.

**"Avtomobili saxlamağa yer yoxdursa, cərimələr niyə artırılır, vətəndaş nə etsin?"**

**Millət vəkili Fazil Mustafa bildirib ki, Bakıda 1 milyona qədər avtomobil var. Ancaq şəhərdə parklanma yerlərinin sayı 20-30 min arasındadır:** "Bəs vətəndaş avtomobilini harada saxlasın? Avtomobili saxlamağa yer yoxdursa, cərimələr niyə artırılır, vətəndaş nə etsin?". Cərimələrin artırılmasının yolverilməz olduğunu vurğulayan F.Mustafa deyib ki, Bakıdan Şamaxıya qədər yollar sarı xətdir: "İndi necə edək, Bakıdan Şamaxıya qədər yolda avtomobili saxlamayaq? Cərimələrin artırılması ilə pis vəziyyətdə qalan vətəndaş olacaq. Azərbaycanda alternativ tramvay, trolleybus xətləri yoxdur. Burada siyasət dəyişməli və tamamilə yeni baxış ortaya qoyulmalıdır".

**"Qanun layihəsində bu məqamlarla bağlı ciddi düşünməli, tələsməməliyik"**

**Millət vəkili Qüdrət Həsənquliyev də nəzərə çatdırıb ki, səkilərin yaxınlığında avtomobillərin saxlanılmasına görə 40 manat cərimənin tətbiqi ciddi problemlər yaradacaq:** "İstanbulda qar yağdı, şəhər bir həftə iflic vəziyyətində qaldı. Bakıda qar yağsa, yol işarələri necə görünəcək? Yolların kənarında parklanmaya gəlincə, bəzi yerlərdə ciddi tədbirlər görülməlidir ki, piyadalara mane olmasın. Ancaq elə yerlər var ki, səki genişdir, avtomobil saxlananda piyadalara mane olmur. Bakıda cəmi 20 minə qədər parklanma yeri var. Mən komitədə qanun layihəsinin müzakirəsindən sonra çıxdım, Mətbuat prospektində yol kənarında yüzlərlə avtomobil saxlanmışdı. Bu qanun layihəsində bu məqamlarla bağlı ciddi düşünməli, tələsməməliyik. Bu qanun tək Bakı yox, bütün Azərbaycan üçün qəbul olunur". Deputat belə maddələrin qəbulunu gələcəyə saxlamağı, indiki şəraitdə layihədən çıxarmağı təklif edib.

**"Sürücü yolda düşüb köşkdən qəzet alanda avtomobilə cərimə gəlir"**

**Deputat Fəzail Ağamalı da Bakıda parklanma sahəsində ciddi problem olduğunu vurğulayıb:** "Yeganə həll yolu Bakıda uzunmüddətli parklanma yerlərinin yaradılmasıdır. Geniş meydanların, küçələrin altında da parklanma yerləri yaradıla bilər. Bunu şəhərsalma sistemində daxil etməklə həll edə bilərik. Bakıda kanalizasiya və parklanma problemləri şəhər üçün iki ciddi problemdir, bunları sistemli həll etmək lazımdır. Heç bir cərimə, inzibati tədbirlərlə belə parklanmanın qarşısını ala bilməyəcəyik. Sürücü yolda düşüb köşkdən qəzet alanda avtomobilə cərimə gəlir. Bu, düzgün deyil. Bir dəqiqə, 5 dəqiqəyə saxlanmaya görə belə cərimələr yolverilməzdir. Xüsusən, təhsil müəssisələrinin qarşısında avtomobilin bir-iki dəqiqəyə görə saxlanılması ciddi narazılıq yaradır".

**"Konsepsiyası yoxdur, 5-6 nəfər şəhərə düşüb..."**

**Deputat Rüfət Quliyev 1 il əvvəl bu problemi qaldırdığını xatırladıb:** "Bakı Nəqliyyat Agentliyinin konsepsiyası olmalıdır, konsepsiyası yoxdur, 5-6 nəfər şəhərə düşüb, avtomobilləri gah orada, gah burada çəkir, cərimələyir. Bəsti Bağırov küçəsində Bakı Nəqliyyat Agentliyi guya layihə həyata keçirir, 50-70 metr səki yaradıblar, o yolda 10-15 maşın saxlamaq olar. Nəyə lazımdır belə səki? Onu, bunu çəkməklə, cərimələməklə məsələ həll olunmur. O cərimə pulları hara gedir? Bakı Nəqliyyat Agentliyi məsələnin həlli üçün konsepsiya hazırlamalıdır. Yolu daraldır, istehkamlar qururlar, belə olmaz. Bakı Nəqliyyat Agentliyini tənqid edəndə də deyirlər ki, deputat niyə tənqid edir?!".



**Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov qardaş ölkənin Milli müdafiə naziri Hulusi Akarla görüşüb.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, görüşdən əvvəl təntənəli qarşılama mərasimi olub. Hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib, dövlət himnləri səslən-

# Zakir Həsənov Türkiyədə möhtəşəm qarşılandı

## Bakı-Ankara hərbi planının ümumi ştrixləri müzakirə mövzusu olub

dirilib. Zakir Həsənov şərəf kitabını imzalayıb. Daha sonra nümayəndə heyətlərinin də iştirakı ilə görüş olub. İşgüzar görüşlərdə regional təhlükəsizlik, eləcə də Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Türkiyəli nazir qonaqları salamlayaraq Azərbaycanla Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi qeyd edib. Akar qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib. General-polkovnik Zakir Həsənov da öz növbəsində Vətən müharibəsində qardaş Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyə görə minnətdarlığını ifadə edib. Nazir iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrdə olduğu kimi hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb. Birgə təlimlərdə hərbçilərimizin qazandığı təcrübənin əhəmiyyətinə toxunan tərəflər bu cür tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini qeyd ediblər. Görüşlərdə vurğulanıb ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə Türkiyə ilə hərbi əməkdaşlığı daha da genişləndirir. Azərbaycanın Müdafiə naziri Zakir Həsənov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən də qəbul olunub. Qəbulda Türkiyənin Milli müdafiə naziri Hulusi Akar da iştirak edib.

**Müdafiə naziri Zakir Həsənovun Türkiyə səfərini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov deyib ki, nazirin səfəri son zamanlar MDB məkanında cərəyan edən hadisələr, eləcə də Ukrayna böhranı fonunda Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq prioritetlərini yeni müstəviyə salmağa hesablanıb.** Analitikə görə, regional "oyun lövhəsində" mühüm damada dayanan Türkiyə həssas situasiyanın miqyasının böyüməsi səbəbi ilə strateji dəqiqliklərə ehtiyac duyur. Bunun üçün strateji müttəfiqi Azərbaycanın da təkliflər paketini dinləmək istəyir: "Akarın Həsənovu səfərə dəvət etməsinin səbəblərini bu təzisdə axtara bilərik. Zakir Həsənovun türkiyəli həmkarı Hulusi Akarla görüşdə Türkiyənin Azərbaycana silah ixracının həcmini genişləndirmək üçün müzakirələr apardığı istisna deyil. Türkiyənin Cənubi Qafqazda hərbi iştirak səviyyəsini artırmaq, Azərbaycandakı Türkiyə Xidmət Qrupu Komandanlığının fəaliyyətini genişləndirmək məsələləri də nazirlərin gündəliyində olub. Bura kəşfiyyat məlumatlarının mübadiləsindən tutmuş, digər koordinasiyalı işlər daxildir. Təhlükəsizliyin konfiqurasiyası birgə hərbi təlimlərin intensivliyini aktual edir. Bu mənada Akar-Həsənov görüşündə həmin təlimlərin proqramı və ona mahiyyətcə yeni xarakter verilməsi məsələsi, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-Gürcüstan perspektiv birgə hərbi təlimləri müzakirə olunub".

*Ekspertə görə, Ermənistanın qeyri-konstruktiv mövqeyinin davam edəcəyi təqdirdə, Bakı-Ankara hərbi planının ümumi ştrixləri müzakirə predmeti olacaq:* "Türkiyənin Cənubi Qafqazda hərbi-siyasi aktivliyinin paralelində digər bölgələrdə cərəyan edən hadisələr Ankara qarşısında yeni təhlükəsizlik və strateji çağırışlar qoyur. Türkiyə bu çağırışların öhdəsindən gəlmək üçün strateji müttəfiqi Azərbaycanla birgə hərəkət edir. Akar-Həsənov görüşü Ermənistana da siqnaldır".

İsmayıl

# Rəqabət Məcəlləsinin qəbulu çox əhəmiyyətlidir

## Deputat bildirib ki, bu həm inhisarçılığı aradan qaldıracaq, həm də qiymət siyasətinə təsir edəcək

**"Süni qiymət artımı olduğu bir dövrdə Rəqabət Məcəlləsinin qəbul edilməsi Azərbaycanın daxili iqtisadiyyat bazarına təsirini göstərəcək". Bu sözləri millət vəkili Vahid Əhmədov deyib. Deputat bildirib ki, bu məcəllə həm inhisarçılığı müəyyən qədər aradan qaldıracaq, həm də qiymət siyasətinə təsir edəcək:**



"Mal idxalına da təsiri olacaq. Azərbaycanda istənilən adam öz biznesini qurub rahat mal gətirib sata bilər və demək olar ki, heç bir inhisarçılıq baş verə bilməz". Parlament üzvü vurğulayıb ki, bu məcəllə qəbul olunandan sonra mütləq Rəqabət Agentliyi yaradılmalıdır: "Mütləq hansısa bir orqan yaradılmalıdır ki, bu işləri tənzimləsin. Bu qurum da birbaşa ölkə başçısına tabe olmalıdır, çünki burada bazar iqtisadiyyatının çox ciddi inkişafından söhbət gedir. Bu, bazara çox böyük təsir edəcək bir qanun olacaq". V.Əhmədov hesab edir ki, bu məcəllə azad rəqabət qurmaq üçün çox əhəmiyyətlidir: "Bu məcəllənin bir nüsxəsi məndə var. Çox gözəl hazırlanıb. Mütəxəssislər bunun üzərində çox yaxşı işləyiblər. Bu məcəllə qəbul olunmalıdır".

*Qeyd edək ki, İqtisadiyyat Nazirliyi müəyyən dəyişiklikləri etdikdən sonra Rəqabət Məcəlləsi layihəsini razılaşdırılmaq üçün Maliyyə və Ədliyyə Nazirliklərinə təqdim edib. Azərbaycan parlamenti 14 dekabr 2017-ci il tarixində keçirilən iclasda həmin dövrdə İqtisadi İnkişaf Nazirliyinin hazırladığı Rəqabət Məcəlləsi layihəsini ikinci oxunuşda qəbul edib. Lakin daha sonra nazirlik Məcəllənin layihəsinin mühüm dərəcədə işləyib başa çatdırmağa dair qərar qəbul edib. Həmin dövrdən sənəd parlamentdə müzakirə olunmayıb.*

İsmayıl



**Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın günlərdir anons edilən geniş müsahibəsi yayıldı. Erməni mediası müsahibəni geninəboluna tirajladı. Sarkisyan müsahibəsində bir sıra etiraflar edib.**

Məsələn, vurğulayıb ki, Azərbaycan Prezidentinin çıxış və sözləri birmənalı olaraq Ermənistan cəmiyyətində həqiqət kimi qəbul edilir. O, erməni cəmiyyətindəki ümumi atmosferi də dəyərləndirib. Qeyd edib ki, cəmiyyətdə böyük məyusluq var. Artıq hamı

# Qatillərin yolu bağlıdır

## "Qarabağ klanı" çoxdan tarixin arxivinə göndərilib

Qarabağ münaqişəsinin başa çatdığını düşünür. Görünür, ermənilər 30 illik işğaldan psixoloji olaraq da əl çəkmək yoluna qədəm qoymaqdadır. İşğalın onların bütün həyatını məhv etdiyini nəhayət anlamağa başlayıblar. Sarkisyan "kapitulyasiyaya məcbur olduq, sındırıldıq, məhv edildik" sözləri ilə ümumi əhval-ruhiyyəni ortaya qoyub. Buna baxmayaraq, Sarkisyan yenə də cəmiyyəti yalan vədlərlə yenidən qırğına vermədən əl çəkməyib. Keçmiş prezident "müharibə istəməmək", "sülhə hazır olmaq" ifadələrinin ölkənin suverenliyinə "təhdid" olduğunu bildirib. "Qarabağla bağlı danışıqları" bərpa etmək üçün hələ də imkanlar olduğunu, Minsk qrupunun diriltməyin lazım gəldiyini iddia edib. O, hakimiyyətin "siyasi dilənçilik"dən qurtarmalı olduğunu deyib və iddia edib ki, Paşinyan doğru olmayan yolla gedir. Sarkisyan sözlərinin revanşizm kimi qəbul edilməməsini istəsə də, əsl niyyətinin revanşizmi körükləmək olduğu gün kimi aydındır. Azərbaycan tərəfi dəfələrlə Ermənistana sülh çağırışı edib və münaqişə mərhələsinin bitdiyini deyib. Rəsmi Bakı ən qısa zamanda Xankəndi və ətrafına nəzarəti əlinə alacaq. Əgər Ermənistan cəmiyyətində buna razı olmayan, Azərbaycanın ərazi bütövlüyünə qəsd etmək istəyən sarkisyanlar kimilər yenidən baş qaldırmaq istəsə, onların başı dərhal əziləcək. Ötən gün dövlət başçısı İlham Əliyev də Ermənistandakı revanşistlərə növbəti sərt xəbərdarlığını edib. Vurğuladı ki, erməni faşizminin dirçəlməsinə imkan vermək olmaz.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Şərq"ə bildirib ki, Ermənistan 44 günlük müharibədə çox böyük zərbə alaraq məğlubiyyətə uğrayıb.** QAT rəhbərinin sözlərinə görə, Vətən müharibəsinin nəticələri və torpaqlarımızın işğaldan azad olunması həm də "Qarabağ klanı"nın belinin qırılması, əliqanlı siyasi qruplaşmanın məhv edilməsi idi: "Sarkisyan-Koçaryan cütlüyü hər fürsətdə müxalifətçilik oynayır, Paşinyan hökumətini tənqid edərək mövcud problemləri İrəvan hakimiyyətinin boynuna yükləməyə çalışır. Mümkün qədər ətraflarına tərəfdaş toplamağa, yenidən siyasi səhnəyə qayıtmağa cəhd göstərirlər. Bunun yollarını axtarırlar. Anlamırlar ki, qatar çoxdan gedib və geri dönüşü qeyri-mümkündür. "Qarabağ klanı" elə bir çuxura düşüb ki, oradan çıxması imkansızdır. Sarkisyanın "statusdan" danışması, Minsk qrupunun "zəruriliyini" qeyd etməsi mənasızdır. Son ümid yerləri Qarabağdakı rus sülhməramlıları və Xankəndidəki separatçılardır. Sülhməramlılar torpaqlarımızı tərk edəndən və Xankəndi və ətraf bölgələr nəzarətimizə keçəndən sonra Sarkisyan-Koçaryan cütlüyünün son ümidləri də məhv olacaq. Söylədiklərinin cəmiyyətdə qarşılıq tapmadığını özləri də çox yaxşı bilirlər".

"Xankəndi və ətraf bölgələr nəzarətimizə keçəndən sonra Sarkisyan-Koçaryan cütlüyünün son ümidləri də məhv olacaq"

**A.Nağı vurğulayıb ki, "Qarabağ klanı" hələ də Rusiyadakı müəyyən dairələrdən dəstək görür:** "Erməni diasporası ilə İrəvan hökuməti arasında ziddiyyət və qarşıdurma var. Paşinyanın addımlarından "məyus" olan erməni diasporası cəmiyyətdə dayaqlarını itirmiş "Qarabağ klanı"na da dəstəyini kəsib. Sarkisyan-Koçaryan vaxtı, ümumiyyətlə heç zaman Ermənistan dövləti olmayıb. Ermənistanı diaspora və kilsə idarə edirdi. Yanaşmasından görünür ki, Paşinyan Ermənistanı dövlət etməyi qarşısına məqsəd qoyub. Baş nazirin məqsədinə nail olub-olmayacağını zaman göstərəcək".

İsmayıl Qocayev

# Yazıçı deputatın fikirlərini dəstəklədi

## Kino sənayesinə ayrılan pullar hara gedir, hansı formada xərclənir, bilinmir



"Dünyanın hər yerində kinodan alınan vergi ilə dövlətin büdcəsi formalaşır"

**Dünən Milli Məclisin ilk plenar iclasında deputat Fazil Mustafa ölkəmizdə kino istehsalına diqqət çəkib. O bildirib ki, kino haqqında qanunun üzərində mütləq yenidən işləmək lazımdır:**

"Dünyada bizim kimi ölkələr kino sahəsindən öz büdcələrinə xeyli əlavə edə bilir. Amma ölkəmiz bu sahədə tamamilə geridə qalıb. Qonşu ölkələrlə müqayisədə kino sənayesi bizdə çox bərbad vəziyyətdədir. Son illər bizdə çəkilən filmlərin sayına, keyfiyyətinə və dünyaya çıxışına diqqət etsək, görərik ki, burda çox ciddi problemlər var".

**Yazıçı, senarist Cəlil Cavanşir deputatın fikirlərinə münasibət bildirib. O, bu haqda "Şərq"ə danışarkən söyləyib ki, ölkəmizdə dövlət hər il kinonun inkişafına milyonlarla vəsait ayırır:**

"Bu işdən məsul olan adamlar, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kino Şöbəsi həmin vəsaitləri düzgün istiqamətləndirmir. Təsəvvür edin, Ermənistan ikinci Qarabağ savaşında məğlub tərəf olsa da, artıq orda müharibənin ağrılarını əks etdirən dünya səviyyəli film çəkilib. Hətta məğlub tərəf öz problemini film formatında dünyaya çatdıra bilib. Bizsə, qələbə qazansaq da, hələ də qələbəmizi əks etdirən sanballı bir film ortaya qoya bilməmişik".

Senaristin fikrincə, bunun səbəbi Mədəniyyət Nazirliyinin kino ilə məşğul olan qurumunun yaritmaz fəaliyyətindədir:

"Çünki bu şöbə ayrılan vəsaiti düzgün bölüşdürmür. Fazil bəy haqlıdır. Dünyanın hər yerində kinodan alınan vergi ilə dövlətin büdcəsi formalaşır. Bizdə isə dövlət öz büdcəsindən kinoya vəsait ayırır. Ayrılan pullar hara gedir, hansı formada xərclənir, bilinmir. Hazırda bu yöndə qətiyyən yaxşı işlər görülmür".

**Yazarın qənaətincə, dövlət kino siyasətinə yenidən baxmalı və artıq bu sahəyə vəsait ayırmağı dayandırmalıdır:**

"İndi müstəqil rejissor və prodakşnlara şərait yaradılmalıdır. Eyni zamanda kino ilə bağlı vergilər azaldılmalıdır ki, Azərbaycan kinosu inkişaf edə bilsin. Əks halda bu inkişaf mümkün deyil".

Günəş Mərd

# "Müxalifət haqqında" qanuna ehtiyac varmı?

## KXCP "yox" deyir, AĞ Partiya isə Fazil Mustafanın təklifini dəstəkləyir



**qanunun qəbul olunması təklif edilib. Təklifi millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa səsləndirib. Deputat deyib ki, bu qanunun qəbulu ilə müxalifətçilik fəaliyyətinin çərçivələri müəyyənləşəcək. Onun sözlərinə görə, Azərbaycanda müxalifətin fəaliyyəti dəqiq müəyyən edilməyib:**

"Hesab edirəm ki, bu qanunun qəbul edilməsi çox vacibdir. Biz bununla bağlı təklifləri hazırlayıb təqdim etmişik".

**Fazil Mustafanın təklifini "Şərq"ə dəyərləndirən Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu deyib ki, heç bir ölkədə bənzər qanun yoxdur. Partiya funksioneri bil**titut deməkdir: "Müxalifətçiliyi hansısa qanunla çərçivələndirmək olmaz. Seçkidə ən çox səs toplayan partiya hakimiyyətə gəlir. Digər partiyalar isə müxalifətdə qalır və siyasi mübarizəsini davam etdirir. Müxaliflik konkret vəzifə deyil ki, qanunla tənzimləyək. Hər partiyanın nizamnaməsi, fəaliyyət istiqaməti var. Heç bir siyasi qurum nizamnaməsində "müxalifətçilik" öhdəliyini götürmür. Belə bir qanun qəbul olunarsa, yaranmış partiya fəaliyyətini necə tənzimləyəcək? Əvvəlcədən bəyan edəcək ki, müxalifət partiyası kimi fəaliyyətə başlayır? Deməli, başqa cür fəaliyyət göstərsə, partiyanı qapadacaqlar, yaxud məhdudiyyətlər qoyacaqlar. Bu, sadəcə siyasi fəaliyyətin deyil, ümumən insan haqlarının pozulması anlamına gəlir". X.Teyyublu müxalifətçiliyin çərçivəyə salınmasını istəmədiyini vurğulayıb: "Hazırda iqtidarda bir partiya var. Ola bilsin, elə dövr gələr ki, 3-4 partiya koalisiya şəklində hökumət qurar və iqtidarda təmsil olunar. Partiyaların konkret, bəri başdan "iqtidaryönlü" və "müxalifətçi" kimi dəyərləndirilməsi düzgün deyil. Bunu müəyyənləşdirmək üçün meyarlar yoxdur. Hansısa partiyaya "mütləq müxalifətçilik fəaliyyəti göstərməlisən" şərti qoyulmur. Hər siyasi təşkilat fəaliyyət istiqamətini, atacağı addımları özü müəyən edir. Müxalifət partiyaları tərəfindən hökumətin addımlarının tənqid olunması isə normal haldır".

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli isə "Şərq"ə açıqlamasında deyib ki, bəzi xarici ölkələrdə "müxalifət" haqqında qanunverici aktlar var.** Partiya təmsilçisinin sözlərinə görə, AĞ Partiya rəhbərliyi də "müxalifətçilik haqqında" müsbət qanunvericilik aktının hazırlanmasının tərəfdarı olduğunu söyləyib: "Müxalifətin dövlət tərəfindən maliyyələşməsini istəyirik. Avropanın aparıcı ölkələrində, Türkiyədə təkcə parlamentdə təmsil olunan partiyalar deyil, həm də kənarda qalmış nüfuzlu müxalif siyasi təşkilatların da maliyyələşməsi təmin olunur. Maliyyələşmə ona görə önəmlidir ki, müxalifət partiyaları digər xarici dairələrin təsirinə düşməsin, onların tapşırıqlarını icra etməsin. İstəyimiz bu yöndədir".

**İsmayıl Qocayev**




# Deputat o günü gözləyir

## "Velosiped yolu olsa, parlamentə velosipedlə gələcəm"

**"Son zamanlar tariflərin, cərimələrin artırılması dəbə minib. Bunu Milli Məclisin dünənki iclasında millət vəkili Razi Nurullayev bildirib. Deputat deyib ki, pandemiya fonunda yeni cərimələr, tariflər narazılıq yaradır:**

"Sürücü üçün parklanma yeri yoxdursa, hansı haqla onu cərimə edə bilərik? Velosiped yollarından danışılır, ancaq yollarda saatlarla tıxacda qalırıq. Velosiped yolu ancaq bulvardadır. Velosiped yolu olsa, parlamentə velosipedlə gələcəm".

**İsmayıl**

# Baş nazir əngəlləri bir-bir keçir

## Prezident seçkilərindən sonra Paşinyanın mövqeyi güclənəcək

**Yanvarın 23-də Ermənistan Prezidenti Armen Sarkisyan istefa verib. İndi ölkədə yeni prezident seçkilərinin baş tutacağı gözlənilir. Maraqlıdır, hazırda rəsmi İrəvanda bu posta ən real namizəd kimdir?**

**Mövzunu politoloq Natiq Miri "Şərq"ə dəyərləndirilb. O bildirib ki, Ermənistanda prezident seçiləcək şəxsin kimliyi önəmli deyil:**

"Çünki Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi blok tərəfindən dəstəklənən istənilən namizəd seçilə bilər. Bilirsiz ki, həmin blokdan 79 nəfər parlamentdə iştirak edir. Prezidentin seçilməsi üçün də 80 səsə ehtiyac var. Buna görə də namizəd kim olur olsun, əhəmiyyət kəsb etməyəcək. Həmçinin prosesdə Paşinyanın rəhbərlik etdiyi blokların səs verməsi ilə bərabər müxalifətdə olan bir nəfərin də rəyinə ehtiyac var. Düşünürəm ki, onlar bu rəyi almaqda da çətinlik çəkməyəcəklər".

**Politoloqun fikrincə, bundan sonrakı mərhələ N.Paşinyan üçün daha rahat olacaq:**

"Bilirsiz ki, Konstitusiya Məhkəməsində hələ də Nikolun bilavasitə nəzarət edə biləcəyi hüquqi bir durum yoxdur.



Çünki hazırda bu məhkəmə prezident Sarkisyanın dönəmində olan əksər hakimlərdən ibarətdir. İnsan hüquqları ilə məşğul olan Ombudsman Aparatı bilavasitə müxalif qüvvələrin təmsilçisi olduğu üçün bu yöndə Paşinyanın mövqeləri tədricən güclənəcək. Bu da öz növbəsində Konstitusiya Məhkəməsinin dəyişməsi ilə bağlı yolu nisbətən təmizləyəcək".

**N.Mirinin qənaətincə, rəsmi İrəvanda kimin prezident seçilməsindən asılı olmayaraq proses Paşinyanın siyasi mövqelərini möhkəmlədəcək:**

"Bu, siyasi güc mərkəzinin dayaqlarının cəmiyyətin daha da dərin qatlarına enməsinə şərait yaradacaq. Digər tərəfdən Ermmənistanda parlamentin spikeri bu səlahiyyətləri icra etdiyi üçün siyasi bir hakimiyyət boşluğu hiss olunmayacaq. Orda prezident vəzifəsi elə bir təsirsiz hala gətirilib ki, o, hazırda natorial qaydada hökumətdən gələn qərarları təsdiqləməkdən başqa bir ciddi funksiya daşımır" .

**Günəş Mərd**

# "Omikron"un pik göstəriciləri qabaqdadır

## Lakin təşvişə əsas yoxdur, xəstəlik artıq əvvəlki xarakterində deyil




**Son günlərdə əksər ölkədə, eləcə də, Azərbaycanda koronavirusa yoluxanların sayında ciddi artım müşahidə olunur. Dünyada koronavirusa yoluxanların sayı 380 milyona yaxınlaşıb, həyatını itirənlərin sayı 5 isə milyonu ötüb.**

Yoluxma sayındakı kəskin artım əhalini narahat edir. Bəzi ölkələr artıq müəyyən qapanmalar tətbiq ediblər. Maraqlıdır, Azərbaycanda da karantin qaydaları sərtləşdirilə bilərmi?

**Sualımızı cavablandıran həkim-infeksionist Nicat Əzimli "Şərq"ə bildirib ki, pik göstəricilər hələ qarşıdadır:** "Koronavirusun "Omikron" variantı son günlər Azərbaycanda öncədən də proqnozlaşdırılan dinamikası ilə artmaqdadır. Bu gedişatın davam etməsi gözləniləndir. Xüsusilə, bu variantın bizdən öncə yayıldığı ölkələrə baxsaq, deyə bilərik ki, pik göstəricilər hələ qabaqdadır. Lakin burada təşviş yaradacaq heç bir amil yoxdur. Xəstəlik artıq əvvəlki xarakterində deyil. Bəzi risk qruplarındakı şəxslər üçün təhlükə hələ də davam etsə də, sağlam şəxslər üçün əksər hallarda ambulator müalicə kifayət edir".

**İnsanları düşündürən ən önəmli məsələlərdən biri də qapanmaların olub-olmayacağıdır. Bununla əlaqədar tanınmış həkim-cərrah Adil Qeybulla bildirib ki, qapanmalar epidemioloji vəziyyətlə bağlıdır:**

"Epidemioloji vəziyyət artsa, vəziyyət ciddiləşsə, müəyyən nisbi qapanmalar ola bilər. Amma daha ciddi tədbirlərin həyata keçirilməsini məqsədəuyğun saymıram. Artıq Avropa ölkələrinin bəziləri bu dalğanı adlayıblar. Məsələn, Danimarkada tamamilə qadağalar aradan götürülüb. Sadəcə insanlar qapalı mühitdə maska taxmaq, məsafə gözləmək, dezinfeksiya olunmaq kimi tədbirlərə əməl etməlidirlər. Başqa sərt tədbirlərə əl atmağa ehtiyac yoxdur. Yas və toy məclislərinin, müxtəlif mərasimlərin və tədbirlərin müəyyən rəqəmlərlə limitləndirilməsi mümkün ola bilər. Adıçəkilən yerlərə daxil olan şəxslərin yoxlanılması həyata keçirilə bilər. Düşünürəm ki, bu dalğanı çox qısa müddətdə keçəcəyik".

**Çimnaz Şahlar**

# Millət vəkilləri rəqabətsiz mühit yaratmağa çalışırlar

## Natiq Cəfərli: "Məmurlara bağlı şirkətlər, inzibati resurslardan istifadə edərək haqsız rəqabətdə önə çıxırlar"



**Dünən Milli Məclisin plenar iclası keçirilib. Millət vəkili Fazil Mustafa Rəqabət Məcəlləsinin qəbul olunmaması problemindən bəhs edib:**

"Ən vacib məsələlərdən biri Azərbaycanda rəqabət məcəlləsinin indiyə kimi qəbul olunmaması ilə bağlıdır. Özəl sektorun sıradan çıxarılmasının, sahibkarlığın tamamilə acınacaqlı vəziyyətə salınmasının əsas səbəblərindən biri budur. Burada kimlərin marağı var, başa düşmək olmur. Amma zaman göstərir ki, dövlət bir sıra məsələlərdə, xüsusilə, dünyada iqtisadi xaosun baş verdiyi vəziyyətdə bu problemləri çox vaxt həll edə bilmir. Bu vəziyyət özəl sektorun yükünü daha da ağırlaşdırır. Ona görə də məşğulluqla, işsizliklə bağlı xeyli problemlər gündəmə gəlir. Bu da sosial gərginliyi artırır".

İllərdir, MM-də Rəqabət Məcəlləsi müzakirə olunur, lakin müsbət qərar qəbul olunmur.

**Deputatın təklifinə dəstək ifadə edən iqtisadçı-ekspert Natiq Cəfərli də "Şərq"ə bildirib ki, ilk növbədə Rəqabət Məcəlləsi qəbul olunmalıdır. Həmin məcəllə 2008-ci ildən parlamentin rəflərində qalıb:**

"Bu məcəllə və sonra da bütün qanunvericilik aktları, o cümlədən "Haqsız rəqabət haqqında" qanun da bununla uyğunlaşdırılmış şəkildə qəbul olunmalıdır. Eyni zamanda ictimai müzakirələr təşkil edilməlidir. Təməl Rəqabət Məcəlləsinin özü olmalıdır. Əgər bu təməl olmayacaqsa, bünövrəsi sağlam olmayan hansısa qanunvericilikdə dəyişikliklər etməklə problemi həll etmək alınmayacaq".

**N.Cəfərliyə görə, məcəllə maraq qruplarında başağrısı yaratmasın deyə, qəbul olunmur:**

"Yəni kiçik sahibkarlar, şirkətlər tez-tez Rəqabət Məcəlləsindən istifadə edərək dövlət orqanlarına, məhkəmələrə müraciət etməsin. Ona görə də biz Rəqabət Məcəlləsinin qəbul prosesinin uzadılmasının şahidi oluruq".

*Ekspert sağlam rəqabətə maneə törədən əsas faktorun məmurların biznesə müdaxiləsi olduğunu qeyd edib:*

"Rəqabətlə bağlı Azərbaycanda ən böyük problem məmur biznesi ilə bağlı olur. Bu haqda ən yüksək səviyyədə də zaman-zaman açıqlamalar verilib. Nəticə etibarilə, məmurların biznesdə hegemon rol alması onlara bağlı biznes strukturlarının fəaliyyəti rəqabətsizlik mühiti üçün şərait yaradır. Məmurlara bağlı şirkətlər, inzibati resurslardan istifadə edərək haqsız rəqabətdə önə çıxırlar. Onlar daha çox tender udurlar, ölkəyə daha çox mal gətirə bilirlər. Bir sözlə, daha böyük üstünlüklərə malik olurlar.

**N.Cəfərli Rəqabət Məcəlləsi indi qəbul olunsa belə, hər şeyin dərhal dəyişəcəyi anlamına gəlmədiyini vurğulayıb:**

"Rəqabət Məcəlləsi ilə rəqabətin özünün yaratdığı bir alqoritm də olmalıdır. Yəni rəqabət mühiti olmalıdır, məhkəmə hakimiyyətində ciddi dəyişikliklər aparılmalıdır, məmurları biznesdən ayırma prosesi, heç olmasa, başlamalı və sona çatmalıdır. Bu məsələlər fonunda Rəqabət Məcəlləsi effekt verə bilər".

**Cəmilə ƏZİM**

# Diplomlu işsizlərin yazı bilgisizliyi...

## Qulu Məhərrəmli: "Tələbələrin çoxu yazı qaydalarına əməl edə bilmir"



**Sosial şəbəkələrdə qrammatik səhvlərlə dolu "Dört il insdut oxi axtdada gə afsand iştə" paylaşımı müzakirələrə, haqlı tənqidlərə səbəb olub:**

Ölkədə diplomlu işsizlər və ya ofisiantlar çoxdur. Ancaq ali təhsilli insanların yazı normalarına əməl edə bilməməsi insanların təpkisinə, mənfi münasibətinə səbəb olur. Ümumiyyətlə, elə tələbələr var ki, universitetdə oxuyanda yüksək nəticələr əldə edir. Amma yazılarında yetərincə orfoqrafik səhvlər buraxır. Hesab olunur ki, gənclərin bu cür problem yaşamalarına səbəb olan amillərdən biri də test üsulu ilə imtahan verməsidir.

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli ali təhsilli insanların dil qayda və qanunlarına etinasız və savadsız yanaşmasının kökünü orta məktəblərdə görür:**

"Biz yazılı imtahan götürəndə fikir veririk ki, tələbələrin çoxu yazı qaydalarına əməl edə bilmir. Durğu işarələrini bir kənara qoyuram, çox ciddi nöqsanlar edirlər. Məsələn, "da" və "də"ni, "ki"ni bəzi hallarda bitişik yazırlar. Əlbəttə, məsələnin kökü məktəbə gedir. Orta məktəblərdə yazı işi çox olanda qrammatik vərdişlər cilalanır. Ancaq köçürmə halları çox olur. Baxırsan, şagirdlər imla və inşa yaza bilmirlər. 2-3 nəfər zəif olsa, başa düşərəm. Amma şagirdlərin çoxunun belə olması biabırçılıqdır".

**Professor imtahanların yazılı aparılmasının üstünlüyündən bəhs edib:**

"Test üsulu ilə imtahan məhsuldar deyil. Tələbələrin çoxu mühazirə yazmır ki, bu da yazı vərdişini zəiflədir. Gənclər çalışmalı, mütaliə ilə çox məşğul olmalıdırlar. Telefon və ya başqa vasitə ilə mesaj, sosial şəbəkələrdə status yazmaq bizə sadə bir şey kimi gəlir. Ancaq necə yazdığımıza fikir vermirik".

**Q.Məhərrəmli hər kəsin qarşılıqlı şəkildə qrammatik qaydalara riayət etməsinin vacibliyini vurğulayıb:**

"Xüsusilə, ictimai fiqur olan şəxslər yazılarına diqqət etməlidirlər. Həm də başqalarından da bu tələb olunmalıdır. Dil bizim dəyərimizdir, onu hərtərəfli qorumalıyıq".

**Cəmilə ƏZİM**

# Dini siyasiləşdirməyə can atanların kitabı bağlandı

## İbadət yerlərinə, ziyarətgahlara nəzarəti daha dövlət özü edəcək



**İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimləri Qafqaz Müsəlmanları İdarəsinə məlumat verilməklə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təyin olunacaq. Bu, Milli Məclisdə müzakirəyə çıxarılan "Dini etiqad azadlığı haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

Qüvvədə olan qanuna görə, ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimləri Dini Komitəyə məlumat verilməklə QMİ tərəfindən təyin olunurdu. Həmçinin, icma yaradılmamış ibadət yerlərinə də din xadimlərinin təyinatı qadağan edilib. Bundan başqa Azərbaycanda dini qurumlar ianə edilmiş pul vəsaitlərini plastik kart və elektron ödəmə sistemləri vasitəsilə qəbul edəcəklər. Dəyişikliyə əsasən, dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edə biləcəklər. Layihəyə əsasən, ianə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydası hazırlanacaq. Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Millət vəkili Fazil Mustafa bildirib ki, qanuna dəyişikliklə təşkilati məsələlər dövlətə keçir. Dini məsələlərə nəzarət Qafqaz Müsəlmanları İdarəsinə verilir: "Qanuna dəyişiklik dövlətin dini siyasiləşdirməyə can atanlara qarşı ata biləcəyi ən vacib bir addımdır. Məscid ibadət yeridir, ibadətini et, çıx get. Dinin siyasiləşməsinə qarşı bütün Azərbaycan cəmiyyəti müqavimət göstərməlidir".

### "Əksər ölkələrdə din xadimləri dövlət tərəfindən təyin olunur"

Deputat Ceyhun Məmmədov da deyib ki, Azərbaycanda dini konfessiyalar tolerantlıq şəraitində yaşayır. Onun sözlərinə görə, hazırda müsəlman ölkələri qarşısında duran vəzifələrdən biri dini təhlükəsizliyin təmin edilməsidir: "Dini icmaların qeydiyyatı ilə bağlı sənədlər birbaşa Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təqdim olunacaq. Qeydiyyatdakı süründürməçiliyə son qoyulacaq. Digər məsələ din xadimlərinin təyinatı ilə bağlıdır. Bu gün dünya ölkələrinin əksəriyyətində din xadimləri dövlət tərəfindən təyin olunur, qanuna dəyişiklikdə də bu məqam əksini tapıb. Din xadimləri mütləq ciddi süzgəcdən keçirilməlidir. Nəhayət, Azərbaycan cəmiyyətində uzun müddət ianələrlə bağlı müzakirələr gedir. Bu qanuna dəyişikliyin qəbulu bu sahədə də şəffaflığı təmin edəcək".

Deputat qeyd edib ki, dinlə bağlı konsepsiyanın qəbuluna ehtiyac var: "Bakı İslam Universitetinin 3500 tələbəsi ilə bağlı problem də həllini tapmalıdır".

Parlament üzvü Tahir Rzayev nəzərə çatdırıb ki, din dövlətin nəzarətindən kənarda qalmamalıdır: "Məscidi siyasət, oyunbazlıq məkanına çevirən mollalardan, axundlardan dinimizi xilas etməliyik. Dindarların fəaliyyəti, baxışları araşdırılmalı və qanunda göstərildiyi kimi, onlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunmalıdırlar".

### "Yas məclislərində qadın mollalar şeir deyib, muğam oxuyurlar"

Deputat Məlahət İbrahimqızı bildirib ki, Azərbaycanda yas mərasimlərindəki qadın mollaların əksəriyyəti cahil vəziyyətdədir. O deyib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunda olarkən Hacı Salman (QMİ sədrinin müavini - red) da bu məsələyə toxunub: "Həmin qadın mollalar şeirdən, muğamdan mərsiyəyə tutmuş hər şey deyirlər. "Quran"dan, hədisdən isə ağıllı bir söz demirlər. Hacı Salman dedi ki, buna nə Qafqaz Müsəlmanları İdarəsi, nə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi heç nə edə bilmir, bu məsələ qanunla tənzimlənməlidir. Ona görə də həmkarlarımı bu məsələnin qanunla tənzimlənməsinə dəstək verməyə çağırıram".

**İsmayıl Qocayev**



## Corc Soros hələ tükənməyib

### O, indi də Çində hakimiyyət dəyişikliyini vacib sayır

**Corc Soros bu dəfə Çinə "köklənib". Independent (türkcə) xəbər verir ki, Stanford Universitetinin tərkibindəki Hoover İnstitutu elmi mərkəzində çıxışı zamanı Soros Çini "dünyanın ən güclü avtoritar dövləti" adlandırıb.**

Dövlət başçısı Şi barədə isə "toplumların qarşı-qarşıya dayandığı ən böyük təhdid" ifadəsini işlədib. C.Soros 4-20 fevral tarixlərində Pekində keçiriləcək 2022 Qış Olimpiadasını Faşist Almaniyasında 1936-cı ildə keçirilmiş Yay Olimpiya Oyunlarına bənzədib və Olimpiadadan güclü nəzarət sisteminin təbliğatı üçün istifadə olunacağını deyib. Soros iddia edib ki, hazırkı dövlət başçısı Şi əvvəlki dövlət başçısı Den Sia Pindən fərqli olaraq "kommunizmə gerçəkdən inanır. Mao Zedun və Vladimir Lenin onun ideallarıdır". Soros Çinin iqtisadi krizislə qarşı-qarşıya olduğunu, ölkədə kimsənin Şi hakimiyyətinə qarşı çıxmağa cəsarət etmədiyini, lakin bu ölkədə hakimiyyət dəyişikliyinin vacib olduğunu da söyləyib: "Ölkəyə daha az təhdid yaradan və daha çox barışsevər birisi başçılıq etməlidir".

**Məlahət**



## "Bələdiyyələr problemləri daha çevik həll edə bilirlər, çünki..."

### "Onlar özləri də orada yaşayırlar və seçicidən asılıdırlar"

**Dünən Milli Məclisin 2022-ci il yaz sessiyasının ilk plenar iclası keçirilib. Ali qanunverici orqanın iclasının gündəliyinə 12 məsələ daxil edilib. İclas zamanı müxtəlif təkliflər irəli sürülüb. Millət vəkili Fazil Mustafa da bir sıra məsələləri dilə gətirib. Belə ki, deputat bələdiyyələrin statusu və səlahiyyəti haqqında danışıb:**

"Bələdiyyələrin statusunun qaldırılması istiqamətində addımlarımızı genişləndirməliyik. Yerli icra hakimiyyətləri orqanları yerli problemlərin həllində çox zaman effektiv fəaliyyət göstərə bilmirlər. Bu istiqamətdə bələdiyyələri inkişaf etdirməliyik".

**Mövzu ilə əlaqəli "Şərq"ə açıqlama verən Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı bildirib ki, əhalinin seçdiyi qurumlar yerli problemləri daha çevik həll edə bilərlər:**

"Bələdiyyələr haqqında çox danışılıb. Qısa olaraq izah edim ki, bələdiyyələrin dünyada iki forması var: anqlosakson forması və fransız forması. Anqlosakson formasında yerlərdə prezidentin təyin etdiyi şəxslər olmur. Amma fransız formada bizdəki kimi, Türkiyədəki kimi yerlərdə həm yerli idarəetmə olur, həm də prezidentin yerlərdə nümayəndələri. Bizdə icra hakimiyyətləri özünü doğrultmadığına görə, problemlərin həlli əhalinin seçdiyi yerli özünü idarəetmə vasitəsilə ola bilər. Məsələn, ABŞ-da prezident yalnız xarici siyasətlə məşğuldur. Kiçik qəsəbələrdən tutmuş, ştatlara qədər hər biri seçkili qurumlardır və saat mexanizmi kimi də işləyir. Amma bizdə buna hazırlıq lazımdır.

Bunu birdən-birə etmək olmaz. Mənə elə gəlir ki, birinci növbədə kiçik kənd və qəsəbələrdən başlamaq lazımdır. Əhali seçdiyi qurumlar yerli problemləri daha çevik həll edə bilirlər. Çünki onlar özləri də orada yaşayırlar və seçicidən asılıdırlar. Ona görə də mən bunu dəstəkləyirəm. Amma vaxt lazımdır ki, əhali buna hazırlaşsın. Çünki bizdə uzun müddət yerlərdə icra hakimiyyətinin sərt rejimi hökm sürüb. Birdən-birə buna keçmək olmaz. Tədricən həyata keçirmək olar".

*Professorun fikrincə, işğaldan azad olunmuş torpaqlarda bələdiyyə fəaliyyətinin bərpasına xüsusi diqqət yetirmək lazımdır:*

"Bir məqamı da qeyd edim ki, işğaldan azad olunmuş rayonlarda bələdiyyələr hələ ki, ümumiyyətlə formalaşmayıb. Yaxın gələcəkdə, birinci növbədə həmin rayonlarda bələdiyyələrin formalaşdırılması prosesinə başlamaq lazımdır".

**Çimnaz Şahlar**

# "Türk bayrağına hörmətsizlik edən şəxs alət rolunu oynayır"

## Azər Həsrət: "Azərbaycan cəmiyyəti dost ölkəyə, onun bayrağına sayğısızlıq edən heç kimi heç vaxt bağışlamayıb, bağışlamayacaq"



**Bakıda Türkiyə bayrağına hörmətsizlik edən 1985-ci il təvəllüdlü Fuad İsmayılov saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, həmin şəxs polisin keçirdiyi təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilib. İlkin izahatında F.İsmayılov əməlini etiraf edib. Araşdırmalar davam etdirilir.**

Xatırladaq ki, şəxs Qara Qarayev metrostansiyası yaxınlığında əlindəki bıçaqla yol kənarındakı Türkiyə bayrağının ipini kəsib. Dövlət rəmzini yerə salıb.

Qeyd edək ki, Fuad İsmayılov son parlament seçkisi zamanı Mərkəzi Seçki Komissiyasının binası qarşısında divara yazı yazmasına görə də saxlanılıb.

Yolverilməz davranış barədə "Şərq"ə danışan tanınmış jurnalist, siyasi şərhçi Azər Həsrət bildirib ki, istənilən dövlətin atributlarına sayğılı yanaşmaq lazımdır:

"Bu, bir qədər əxlaq və tərbiyə məsələsidir. Üstəlik də Azərbaycan vətəndaşı olaraq qardaş Türkiyənin bayrağına xüsusi hörmət edilməlidir. Çünki Türkiyə əsgər azərbaycanlılar üçün öz vətənləri qədər sevdikləri bir dövlətdir. Qardaş ölkənin bayrağına çirkin şəkildə hücum edən şəxs elə Azərbaycanın dövlət rəmzinə də sayğısızlıq edib. Həmçinin ölkə vətəndaşlarının, xalqımızın iradəsinə də böyük qüsurdur. Türkiyənin bizim üçün nədən bu qədər dəyərli olduğu barədə danışmağa gərək yoxdur. Görünən dağa bələdçi lazım deyil, deyirlər. Dövlətin bayrağına elə rəftar əlbəttə ki, qəbuledilməzdir. Həmin şəxsə qarşı qanunun yol verdiyi ən sərt cəza tədbirləri görülməlidir".

*A.Həsrətin fikirlərinə görə, o, təsadüfi bir davranış deyildi:* "Ölkəmizdə təəssüf ki, Azərbaycan və Türkiyənin getdikcə daha da yaxınlaşmasından ciddi narahat olan qüvvələr fəallaşıblar. Onlar Rusiyaya, İrana, qərbin müxtəlif "sorosçular", amerikançılar kimi zərərli mərkəzlərinə bağlıdırlar. Hər biri əl-ələ verib, Azərbaycan Respublikası daxilində antitürkiyə təbliğatı aparmaqla məşğuldurlar. Bayrağa göstərilən ehtiramsız cəhd də o qəbildəndir. Məsələyə biganə yanaşmaq olmaz. Arxasında duran qüvvələr, kökündə duran proseslər araşdırılmalı, gün üzünə çıxarılmalıdır. Ümumiyyətlə, cəmiyyətimizin bu hadisəyə verdiyi reaksiya da elə insanlara dərs olmalıdır. Demək olar ki, hər kəs ayağa qalxıb, onu qınadı, sərt cəza tədbirləri tələb etdi. Dövlət də üzərinə düşən vəzifəni yerinə yetirdi".

**Junalist dövlətə qarşı təbliğatla məşğul olanların bu cür davranışlarının bir növ nəbz yoxlaması olduğunu vurğulayıb:**

"Onlar bununla ictimai rəyi öyrənmək istəyirlər ki, Türkiyəyə qarşı nələr etsək, insan toplusu buna dözümlü, təmkinli yanaşa bilər. Bildiyimiz kimi, öndərimiz, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin 31 yanvar doğum günü idi. Həmçinin diqqətimi çəkən odur ki, bunun fonunda görkəmli xadimlə də bağlı birbaşa və ya dolayısı ilə gözdənsalma kampaniyası aparılır. Bu cür hadisələr türk kimliyinə düşmən kəsilmiş qeyd etdiyimiz qüvvələrin əməlləridir. Bayrağa hörmətsizlik edən şəxs də alət rolunu oynayır. Təbii ki, ona lazımi reaksiya verilir. Azərbaycan cəmiyyəti dost ölkəyə, onun bayrağına sayğısızlıq edən heç kimi heç vaxt bağışlamayıb, bağışlamayacaq".

**Sücayət Mehti**

# Əvvəllər təminatla bağlı bəzi sıxıntılar yaranırdı

## İndi hər bir müvafiq icra hakimiyyəti orqanı öz tabeliyindəki silahlı birləşməni özü təmin edəcək



**Azərbaycan Silahlı Qüvvələrinin madditexniki bazasının gücləndirilməsi üçün yeni qanun layihəsi hazırlanır. Bununla bağlı Milli Məclisin dünən keçirilən iclasında "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanunda dəyişiklik müzakirəyə çıxarılıb.**

Bildirilib ki, qanunun 9.6-cı maddəsi yeni redaksiyada təklif olunur. Dəyişikliyə əsasən, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydası və təminat norması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Layihə Azərbaycanın ərazi bütövlüyü uğrunda 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək aparılan döyüş əməliyyatlarında əldə edilmiş təcrübə əsasında hazırlanıb. Məqsəd bütün növ qoşunların maddi-texniki bazasının ən yüksək səviyyədə təmin edilməsidir.

Dəyişikliklər səsverməyə qoyularaq qəbul edilib.

**Qanun layihəsi ilə bağlı "Şərq"ə danışan hərbi ekspert Elxan Şıxəliyev bildirib ki, əvvəl maddi-texniki təminat vasitələri Dövlət Satınalmalar Agentliyi tərəfindən təmin olunurdu, indi isə hər bir müvafiq icra hakimiyyəti orqanı öz tabeliyindəki silahlı birləşməni özü təmin edəcək.**

"Müvafiq icra hakimiyyəti deyəndə güc strukturlarına malik hər bir qurum nəzərdə tutulur. Müdafiə Nazirliyinin və ya digər güc strukturlarının maddi-texniki bazası həmin qurumun rəhbərliyinin tövsiyələri əsasında, onların nəzərdə tutduğu həcmdə və miqdarda həyata keçiriləcək. Ola bilsin ki, növbəti mərhələdə təminat və təchizat məsələlərində hərbi əməkdaşlığın hansı ölkələrlə həyata keçirilməsi də müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən olunacaq. Bu, dünya təcrübəsində də belədir.

Yeni mərhələdə Azərbaycan Ordusunun xarici müdafiə sənayesi istehsalı olan məhsullarla təmin olunmasına ehtiyac yaranır. Xüsusən də, hərbi hava qüvvələrində döyüş təyyarələrinin parkının yenilənməsi ilə bağlı layihələr var. İndi əsasən Pakistan və İsrail istehsalı olan hərbi təyyarələrin üstün cəhətləri, maliyyə tutarları nəzərə alınmaqla müqayisəsi aparılır ki, növbəti mərhələdə hansıların silahlanmaya daxil olunmasına həmin icra hakimiyyəti orqanları qərar versinlər".

**Ekspertin sözlərinə görə, əvvəl bəzi hallarda təminatla bağlı sıxıntılar yaranırdı:**

"Əvvəl bir mərkəzdən bu qədər güc strukurunu təmin etmək və onun keyfiyyətinə, kəmiyyətinə nəzarət etmək çətin olurdu. Müharibə zamanı baş verən müsbət və mənfi hallar incələndikdə bu sahədə axsaqlıq olduğu aşkarlanıb. Bunun səbəbləri müəyyən olundu və daha dinamik təmin olunmanın həyata keçirilməsi üçün addımlar atılması ilə nəticələndi.

Qanun eyni zamanda demək istəyir ki, artıq biz "Azərbaycan silahlı qüvvələri" yerinə, Azərbaycan Ordusu və başqa silahlı birləşmələr ifadəsini işlətməliyik".

**Sənan İsmayıl**

## Şübhəli saxlanıldı...

### Bakıda quyudan tapılan 4 yaşlı qız öldürülüb



**Bakıda 4 yaşlı qızı öldürüb 10 metr dərinliyində quyuya atan şəxs saxlanılıb.**

Baş Prokurorluqdan bildirilib ki, faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (Qəsdən sağlamlığa ağır zərər vurma; zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Zərərçəkmişin qonşusu 1990-cı il təvəllüdlü Mehman Mansurov şübhəli şəxs qismində saxlanılıb. İstintaq davam etdirilir.

*Xatırladaq ki, Bakıda 2018-ci il təvəllüdlü Məryəm Hüseynlinin itkin düşməsi barədə polisə məlumat daxil olub. Aparılan axtarışlar nəticəsində azyaşlının meyiti quyudan tapılıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz azadlığı, plüralizmin inkişaf etdirilməsi



# "Hər kəs özündən başlamalıdır"

### “Sosial şəbəkələr haqqında qanuna ehtiyac yoxdur”

**”Bu yaz sessiyasında nəhayət, sosial sifariş olan ”Sosial şəbəkələr haqqında” qanunun qəbul edilməsini təklif edirəm”. Bu təklifi Milli Məclisin yaz sessiyası çərçivəsində dünən keçirilən ilk plenar iclasında deputat Elman Nəsirov səsləndirib. Deputat bildirib ki, sosial şəbəkələrdə söyüş baş alıb gedir: ”Belə insanları məhkəməyə verməkdən də çəkinirsən ki, yeni qondarma siyasi məhbus icad edəcəklər”.**

Qeyd edək ki, E.Nəsirovun təklifi həmkarları Sahib Alıyev, Naqif Həmzəyev tərəfindən də dəstəklənib. Sosial şəbəkələrlə bağlı ya ayrıca qanun, ya da müəyyən tənzimləmə mexanizminin olması, mövcud qanunvericiliyə dəyişikliklər edilməsi təklifləri bir neçə ildir ki, səslənir. Təklif bununla əsaslandırılır ki, sosial şəbəkələrdə təhqir, böhtan, şantaj xarakterli paylaşımlar yer alır. İnsanların şərəf və ləyaqətinin alçaldılması baş verir. Buna qarşı hər hansı şəkildə tədbir görülməməsi isə bu kimi halların çoxalmasına, geniş yayılmasına şərait yaradır. Nəticədə şəxslər, hətta dövlət qurumları haqqında əsassız, dəqiqləşdirilməmiş məlumatlar yayılır, şəxslərin və qurumların nüfuzu zədələnir. Məlumdur ki, sosial şəbəkələr azad məkandır. Burada hər bir insan düşündüyünü, müşahidə etdiyini yazır, paylaşır. Əslində, sosial şəbəkələr cəmiyyətdə məlumatlılığın artmasına kömək edir. Azad informasiya mühitini formalaşdırır. Sosial şəbəkələr haqqında qanun qüvvəyə minərsə, necə olacaq? Hansı hallarda şəxslər paylaşdıqları informasiyaya görə məsuliyyət daşıyacaqlar? Xatırladaq ki, bir müddət əvvəl Azərbaycanda ”Sosial şəbəkələrin statusunun tənzimlənməsi haqqında” yeni qanun layihəsi hazırlandığına dair məlumat verilmişdi. Qeyd edilirdi ki, qanun layihəsi ilkin variantda 1 fəsil və 9 maddədən ibarətdir və burada sosial şəbəkələrdən istifadə, informasiya yayımı və s. məsələlərlə bağlı hüquqi tənzimlənmələr əksini tapır. Qanun layihəsinin Milli Məclisin komitələrində müzakirəyə çıxarılacağı da bildirilirdi. Lakin məsələ, hələ də açıq qalır. Zaman-zaman bu problem gündəmə gətirilir, fikirlər səslənir, yenə də həll edilməmiş saxlanılır. Ötən ilin sonlarında qəbul edilən ”Media haqqında qanun” layihəsi müzakirə olunan günlərdə də sosial şəbəkələrlə bağlı müzakirələr aktivləşmişdi. O zaman qanun layihəsini şərh edən media mütəxəssisləri sosial şəbəkə və bloger fəaliyyəti ilə bağlı yanlış təsəvvürlərin ortaya çıxmasından təəssüfləndiklərini bildirir və qeyd edirdilər ki, ”Media haqqında” qanun layihəsinin heç bir müddəası sosial şəbəkələrin və blogerlərin fəaliyyətinə şamil edilməyib. Bu barədə ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid də fikir bildirmişdi: ”Yeni qanun layihəsində sosial şəbəkələrlə bağlı tənzimlənmələr yer almır. Layihədə media subyektlərinə ənənəvi media - çap mediası, yeni veb saytlar və audiovizual media şamil olunur”. Göründüyü kimi sosial şəbəkələr bu gün də azad informasiya məkanı olaraq qalır. Amma bu məkanda hansısa sərhədlərə, ümumiyyətlə, lüzum varmı?

**Sitat.info saytının baş redaktoru, peşəkar jurnalist Nərgiz Liftiyeva ”Şərq”ə açıqlamasında qeyd etdi ki, sosial şəbəkələrin tənzimlənməsi çətindir:**

- Sosial şəbəkələrin hansısa formada tənzimlənə biləcəyini düşünmürəm. Bunun bir mexanizmi yoxdur. Azərbaycanda hətta qanunla tənzimlənməsi mümkün olan sahələrdə xeyli qanunsuzluqlar var ki, onlara qarşı tədbir görülmür. Bütün dünyada sərbəst olan sosial şəbəkələrin qanunla məhdudlaşdırılması, burada yazılan fikirlərə görə insanların məsuliyyətə cəlb olunması yolverilməzdir. Sadəcə, sosial şəbəkədə təhqir, böhtan və sair şərəf və ləyaqətin alçaldılması hallarına diqqət edilsə və istifadəçilər etik qaydaları gözləsə yetərlidir. Bunun üçün ayrıca qanuna ehtiyac yoxdur. Başqa vacib problemlərin qarşılığında sosial şəbəkələr haqqında qanun tələbi qeyri-ciddi görünür.

Amma məlumdur ki, sosial şəbəkələrdə sifarişli təhqirlər, qaralamalar, böhtanlar da olur. Bu, məqsədli şəkildə edilirsə, həmin adamlardan etik qaydalara riayət edilməsini gözləmək mümkündürmü? Bəlkə hansısa formada tənzimləmə bəzi təhlükəli halların qarşısının alınmasına kömək edər? Səhv etmirəmsə, Almaniyada sosial şəbəkələrin tənzimlənməsinə dair nəsə sənəd qəbul edilib. Dəqiq xatırlamıram. N.Liftiyeva bildirdi ki, tənzimləmə mexanizmi olsa, ondan sui-istifadə edənlər də olacaq.

**Peşəkar jurnalist Ləman Ələşrəfqızı da sosial şəbəkələrlə bağlı qanuna ehtiyac duymadığını dedi:**

- Bu məsələ müntəzəm müzakirə edilir. Sosial şəbəkələrdə söyüş, böhtan xarakterli paylaşımlardan narahatlıq ifadə edilir. Hesab edirəm ki, hər kəz özünü nizamlı, əxlaqlı aparsa, normal fəaliyyət göstərsə, işlətdiyi ifadələrə diqqət etsə, söyüş də olmaz, təhqir də. Hər kəs özündən başlamalıdır. Özünü düzəltməlidir. Çalışmalıdır ki, söyüş, təhqir predmeti olmasın.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Mübarək aylar başlayır

### Bu aylar mənəvi iqlimiylə ruhumuzu oxşayıb, könlümüzü fərəhləndirəcək

**Müsəlman aləmində məxsusi yeri olan mübarək aylardan biri Rəcəb fevralın 3-dən etibarən başlayır. Rəcəb və sonrakı Şaban ayı Ramazan ayına hazırlıq müddəti hesab edilir.**

Rəcəb və Şaban ayları həm də Uca Rəbbimizin məhz bu aylar içində bizlərə ehsan etdiyi qəndil gecələri ilə məşhurdur. Rəcəb ayının ilk cüməsi - cümə axşamını cüməyə bağlayan gecə ”Rəqaib qəndili” - Allahdan bağışlanma diləmək üçün münasib sayılan gecələrdəndir. Rəcəb ayında həmçinin əziz islam peyğəmbəri Məhəmməd əleyhissalamın Merac gecəsi də vardır. Həmin gecə də ”Merac qəndili” kimi məşhurdur. miladi təqvimlə fevralın 3-dən etibarən başlayır. İlk qəndil gecəsi də fevralın 3-dən 4-nə keçən gecədir. Təsdiqlənmiş hədislərdə islam peyğəmbəri Məhəmməd əleyhissalamın belə buyurduğu bildirilir: Rəcəb Allahın, Şaban mənim, Ramazan ümmətimin ayıdır”. Həmçinin Allahın Rəsulu belə dua edərmiş: ”Allahım, Rəcəb və Şabanı bizə mübarək qıl, bizi Ramazana yetir”. 3 aylar göylərin nura qərq olduğu, yer üzünün Allahın ehsan etdiyi nemətlərlə dolubdaşdığı aylardır. Bu aylar mənəvi iqlimiylə ruhumuzu oxşayıb, könlümüzü fərəhləndirəcək. Mübarək aylar xeyirlərə vəsilə olsun.

Şaban ayında isə Rəbbin bəndələrinə bağışladığı, əfv diləyənləri əfv etdiyi mübarək ”Bəraət qəndili” ”gizlənir”. Əziz islam peyğəmbəri ümmətinə bu aylardan mümkün olduqca çox bəhrələnmək və mübarək Ramazan ayına hazırlıq görməyi tövsiyə edib. Artıq mübarək 3 aylar başlayır. Hicri-qəməri təqvimiylə Rəcəb ayı

**Məlahət**

# Səsli-küylü bəyanatlar verməklə deyil

### “Çox təəssüf edirəm ki, neft istehsal edən bir ölkədə enerji qiymətləri olduqca bahadır”



**Azərbaycana idxal edilən Aİ-92 markalı benzini gömrük rüsumundan azad olunub. Bununla bağlı qərarı yanvarın 29-da Baş nazir Əli Əsədov imzalayıb.**

Nazirlər Kabinetinin ”Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri” haqqında qərarındakı dəyişikliyə əsasən, qeyd olunan benzin növünün hər 1000 litr üçün gömrük rüsumu 15 faizdən 0 faizə endirilib.

Eyni zamanda Nazirlər Kabinetinin digər qərarı ilə Aİ-92 markalı benzinin idxalı zamanı aksiz vergi dərəcəsi bir ton üçün 200 manatdan 1 manata endirilib. Qərar 2022-ci il 1 fevral tarixindən tətbiq olunub və iyunun 1-dək qüvvədə qalacaq.

**İqtisadçı Nazim Bəydəmirli Nazirlər Kabinetinin yeni qərarından ”Şərq”ə danışarkən bildirib ki, bu, hazırda ölkədə neft emalı zavodu daxilində benzin istehsalının çatdırılmadığını göstərir:**

”Xaricdən gələn benzinin bahalaşmaması üçün də belə bir addım atılır. Məmurlarımızın və SOCAR rəhbərliyinin verdiyi məlumata görə, bu sahədə rekonstruksiya işləri 2023-cü ilin sonuna kimi tamamlanacaq. O zamana kimi biz yenə də belə məsələlərlə qarşılaşacağıq”.

**N.Bəydəmirli illər boyu yeni neft emalı zavodlarının tikilməsi haqqında səsli-küylü bəyanatlar verildiyini diqqətə çatdırıb:** ”Hələ 2010-cu ildə Qaradağ rayonu ərazisində böyük bir neft emalı kompleksinin tikiləcəyini deyirdilər. Burada çox ciddi qiymət şişirdilməsi mövcud idi. Söhbət on milyardlarla dollar dəyəri olan bir zavoddan gedirdi. Çox təəssüf ki, idarəetmədə olan monopoliya, qohumbazlıq, regionçuluq neft sektorunda daha qabarıqdır. Onlar illər boyu mövcud olan neft emalı zavodlarını rekonstruksiya edib müasir standartlara çatdırmaq əvəzinə, xaricdə neft emalı komplekslərinə böyük investisiyalar yatırdılar. Bu tip layihələrdə də ölkə vətəndaşları ikinci plana atılıb. Məqsəd əksər hallarda dövlət vəsaitin mənimsənilməsi olub”.

*İqtisadçı əksər ölkələrlə müqayisədə Azərbaycan vətəndaşlarının benzinə daha çox pul verdiyini vurğulayıb:*

”Çox təəssüf edirəm ki, neft istehsal edən bir ölkədə enerji qiymətləri olduqca bahadır. Bu, olduqca acınacaqlı durumdur”.

**Günəş Mərd**



# Miqren xəstəliyinə qadınlarda daha çox rast gəlinir

### Bir sıra məhsulları qida rasionumuzdan çıxartmalıyıq

**Miqren müalicəsi mümkün olan nevroloji xəstəlikdir. Bu xəstəliyə kişilərə nisbətdə qadınlarda daha çox rast gəlinir. Qadınların təxminən 20 faizi, kişilərin isə 7 faizi miqrendən əziyyət çəkirlər.**

”Şərq”in məlumatına görə, ”Turan Hospital”ın həkim-nevroloq Ruhiyyə İbrahimli xəstəlik haqqında ”Günə Doğru” verilişində açıqlama verib:

”Miqren xəstəliyi özünü 30 yaşa kimi göstərir. Erkən yaşlarda başlayır. Cinsi yetişkənlik dövründə özünü daha qabarıq göstərir. Yaş artdıqca miqren tutmalarının sayı azalır. Lakin bəzən qocalıq dövrünə qədər uzana bilir.

Birtərəfli, pulsasiya edən baş ağrıları varsa və ağrı şiddəti bir neçə dəqiqədən bir neçə saat müddətdə artırsa, səhərlər yuxudan oyananda tutmalar zamanı ürəkbulanma, qusma müşahidə olunursa, fiziki aktivlik vaxtı ağrı şiddətinin artması hesabına əmək qabiliyyəti enirsə, deməli, sizdə miqren xəstəliyi vardır.

İsti, soyuq, cinsi yetişkənlik dövrü, uzun müddət ac qalmaq, yuxusuzluq, menstruasiya və menepauza dövrü xəstəliyi şiddətləndirir. Bir sıra məhsulları qida rasionumuzdan çıxartmalıyıq. Pendir, bəzi sitrus meyvələri, duza qoyulmuş tərəvəzlər, şokolad, banan, ovakado və s”.

*Nevroloq miqrenin müalicə yollarını vurğulayıb:* ”Profilaktik müalicə apardıqda tutmaların sayını azaltmış oluruq, bəzən tamamilə yoxa çıxartmaq mümkündür. Tutmalar dövründə xüsusi seçim preparatların pasiyentlərə təyin etməklə ağrı şiddətini azaldırıq, yaxud ağrının itməsinə nail ola bilirik”.

**Aygün Tahir**

# Pandemiya toylara ciddi təsir etdi

### Yoxsulluq insanları qız qaçırma adətlərinə meyilləndirir



**Azərbaycanda hələ də bəzi bölgələrdə qız qaçırma hadisələrinə rast gəlinir. Məhəbbətin qüdrəti gəncləri qoşulub qaçmağa vadar etsə də, bununla bağlı durumlar qanunla tənzimlənir.**

Cinayət Məcəlləsində göstərilir ki, evlənmək məqsədilə qız qaçıran şəxsləri 5 ildən 12-ilə qədər həbs cəzası, olay tamah məqsədilə törədilibsə, həmin şəxs 8 ildən 12 ilə qədər müddətə azadlıqdan məhrum olunur.

Qız qaçırmaq hər iki ailənin gənclərin izdivacına razı olmayanda, yaxud qızın oğlanı istəmədiyi vaxt baş verir. Bu ”ənənə”nin qədim ritualın elementi olduğunu desək, yanılmarıq.

**Mövzudan danışan sosioloq Rəşad Əsgərov ”Şərq”ə açıqlamasında Azərbaycan cəmiyyətində toy münasibətlərinin həmişə xüsusi önəm daşıdığını bildirib:** ”İnsanlar evlilik günlərini daha çox təmtəraqlı formada keçirməyə meyilli olurlar. Amma bəzi bölgələrdə, xüsusilə Qərb bölgəsində toy, nişan mərasimindən əlavə qız qaçırma kimi adətlər var. Bəzən həmin bölgədə qızı qaçırıb, sonra toy edirlər. Və yaxud qız tərəfin oğlan tərəflə müəyyən problemləri müşahidə edilir, ailələrin birbirinə uyuşmaması səbəbindən qızın oğlanla ailə qurmasına razılıq vermirlər. Belə halda gənclər qoşulub qaçırlar. Qaçma prosesi həmin bölgə üçün formal xarakter daşıyır, elə də təəccüb doğuran hal deyil”.

**Sosioloq belə hadisələrin səbəblərini açıqlayıb:**

”Pandemiya dövründə işsizlik, sosial həyatdan təcrid olmaq, el şənliklərinin keçirilməsinə məhdud şəkildə icazə verilməsi insanları problemin həllində, bəlkə də əvvəllər təsdiqləmədikləri formanı praktiki təcrübədə istifadə etmək zərurətini yaradıb. Beləliklə, kütləvi tədbirlərə icazə verilmədiyi üçün bu yoldan istifadə edərək gənclər qeyri-ənənəvi üsulla keçirməyə başlayıblar.

Bəzən qız qaçırma durumunda bir-birinin xarakterlərini bilmədən ani tanışlıq nəticəsində qız qaçırma, nikah məsələsini aktuallaşdırır. Sonra ailələr arasında narazılıqlar, boşanmalara nəticələnir. Qız qaçırma məsələsində gənclər prosesin nəticələri haqqında düşünməli, bir-birilərini tanımalıdırlar. Bu hal bir müddətdən sonra ölkədə boşanma faizinin artmasına təsir göstərir.

Cənub bölgəsi, Bakı və Bakı kəndlərində qız qaçırma hadisəsi ailələr, qohumlar arasında böyük gərginliyə, münaqişəyə səbəb olur. Ölüm halları, fiziki xəsarət durumlarına rast gəlmək mümkündür”.

**Aygün Tahir**

# Bakının it bazarı...

## Ən çox satılan pitbull və avçarkalardır



(Əvvəli səh: 8-də)

**Digər satıcı İlkin Babayev bazarda ümumi qiymətlərin 150- 600 manat aralığında dəyişdiyini bildirdi: ”İtlər bura Rusiyadan, Türkiyədən, eləcə də bizim bir çox rayonlardan gətirilir.**

Ən çox Zvanoklar, Çoban itləri, Xaskilər alınır. Yemək kimi ət dükanından aldıqlarımızı bişirilmiş qaydada veririk”. İ.Babayev özünün satdığı Xaski cinsindən danışarkən vurğuladı ki, bu cins itlərin istiyə dözümü yoxdur: ”Ona görə də soyuq havalarda bazara gətiririk. Bunlara Sibir itləri də deyirlər. Kiçik xaskilərin erkəkləri 150, dişiləri 100 manatdır. Erkək növü daha gec tapıldığı üçün aralarında belə qiymət fərqi var. Ümumilikdə bu cins yaxşı satılır”.

**Satıcı Sərdar Orucov isə itlərin Zvanok və Kanqal növləri haqqında məlumat verdi:**

- Zvanokların qiyməti 50-80 manat arası dəyişir. Alıcılar belə balaca növlərə daha çox maraq göstərir. Bunların satışı normaldır. Amma yay mövsümündə daha çox alınır. Kanqal və ya çoban iti Qubadan, Xınalıqdan gətirilir. Qiyməti 600 manatdır. Əslində 1200-1500 AZN-ə satılır. Hazırda saxlamaq üçün şəraitimiz yoxdur deyə məcbur bu qədər aşağı qiymətə veririk. Bu növ itlər hər şeydən öncə yaxşı qidalandırılmalıdır ” .

Bazardakı ümumi mənzərə nə qədər xoş olsa da, ətrafdakı antisanitariya gözümüzdən qaçmadı. Digər tərəfdən bazarın avtomobillərin hərəkət etdiyi yolun paralelində yerləşməsi satıcılar və alıcıların həyatını təhlükə altında qoyur. Buradakı sıxlıq sürücülərin də narazılığına səbəb olur, onları yubadır. Elə çəkiliş əsnasında satıcılardan bir neçəsi yaxınlaşıb burada satış üçün normal şərait qurulmasını istədiyini bildirdi. Ümid edirik ki, adiyyəti qurumlar tərəfindən əraziyə baxış keçiriləcək və məşhur it bazarı bundan sonrakı fəaliyyətini tam təhlükəsiz və gigiyenik qaydalara uyğun şəkildə davam etdirəcək.

**Günəş Mərd,**
**Xanlar Əlibəy**

# Dayə kötəyi uşaqlarda travma yaradır

## Fərqanə Mehmanqızı: “Həm fiziki, həm də psixoloji şiddət insanların, xüsusilə, uşaqların şəxsiyyətinin formalaşması prosesində mənfi nüanslar yaradır”

**Azərbaycanda dayənin uşağa işgəncə verməsi ilk hadisə deyil. Oxu.Az xəbər verir ki, işgəncə barədə uşağın anası görüntüləri yayıb. Belə ki, dayə yatmağını tələb etdiyi uşağa şpris ilə işgəncə tətbiq edir. Hadisənin görüntüləri evə yerləşdirilmiş təhlükəsizlik kamerası ilə lentə alınıb.**

Son zamanlarda uşaqlara qarşı şiddət artıb. Ailə, məktəb, dayə və s. zorakı metodlardan istifadə edir. Hətta uşaqların özləri belə bir-birilərinə qarşı kobudluq göstərirlər. İnsanların aqressivləşməsi müxtəlif səbəblərdən yaranır. Psixoloqlar bunu hava şəraiti, texnologiyanın yaratdığı fəsadlar, maddi vəziyyət və digər problemlərlə əlaqələndirirlər. Ümumiyyətlə, keçmişdən bəri şiddət tərbiyə metodu kimi istifadə olunub. Valideynlər, müəllimlər, dayələr uşaqları döyərək onları idarə etmək istəyirlər. Təəssüf ki, bu fikir XXI əsrdə hələ də davam edir.

Niyə uşaqlara şiddət göstərilir? Hansı preventiv addımlar atılmalıdır?



**Psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə deyib ki, fiziki şiddət tərbiyə üsulu deyil:**

”İnsanlar bunu tərbiyə metodu kimi qəbul edir. Təbii ki, cəza, fiziki şiddət psixoloji cəhətdən uşaqlarda fəsad yaradır. Bu, şiddət törədən insanın ruh halını, psixoloji vəziyyətini, hətta sadist olduğunu açıq-aşkar göstərir. Buna görə də uşaqlarımızı əmanət etdiyimiz insanlara çox diqqət yetirilməlidir”.

**Psixoloq adiyyəti qurumların bu işə ciddi yanaşmalarını önə çəkib:**

”Ümumiyyətlə, dövlət strukturları səviyyəsində uşaq baxıcıları sertifikatlaşdırılsa, orada çalışanların psixoloji durumu, pedaqoji qabiliyyəti yoxlanılsa, fəaliyyətlərinə nəzarət edilsə, insanlar da onlara güvənər. Bu da uşaqların cəmiyyətdə sağlam bir şəxsiyyət kimi yetişməsində mühüm bir faktordur”.

Psixoloq şiddətin uşaqlarda yarada biləcəyi travmalardan da bəhs edib:

”Həm fiziki, həm də psixoloji şiddət insanların, xüsusilə, uşaqların şəxsiyyətinin formalaşması prosesində mənfi nüanslar yaradır. Uşaqlar qorxu yaşayır, özlərinə inam azalır. Bu da travmalar əmələ gətirir. Təəssüf ki, travmalar həyatlarının hər anında onlarla yaşayır və düzəlməsi də çətin olur”.

**Cəmilə ƏZİM**

# Azercell Bakıda keçirilən "Baku International HR Forum"a dəstək olub

## Şirkətin prezidenti Zərinə Zeynalova sürətlə dəyişən texnologiyalar mühitində insan resursları funksiyasının rolu barədə fikirlərini bölüşüb

**Yanvarın 28-də Azərbaycan İnsan Resursları İnstitutunun təşkilatçılığı ilə insan resursları (İR) sahəsindəki innovasiyaların təşviqi və müxtəlif sahələrdə təcrübə mübadiləsi məqsədilə ”Baku International HR Forum” (BIHRF) keçirilib. Azərbaycanın telekommunikasiya bazarının lideri Azercell tədbirin baş sponsorlarından biri kimi çıxış edib.**



6 ölkədən 16 spiker sürətlə dəyişən korporativ mühitdə insan resurslarının rolu ilə bağlı fikirlərini yerli və beynəlxalq təşkilatları təmsil edən 300 iştirakçı, müxtəlif sektorlardan olan İR departamentlərinin rəhbərləri, dövlət rəsmiləri, sahibkarlar və digərləri ilə bölüşüblər.

CEO panelinin İR funksiyasının təşkilatın uğurundakı rolu ətrafındakı müzakirəsində çıxış edən Zərinə Zeynalova, əsl biznes tərəfdaşı olmaq üçün həmin funksiyanın vacibliyini vurğulayıb. ”Texnologiya və digər sənaye sahələrində innovasiyaların sürətli tətbiqi dəyişən şəraitə yüksək səviyyədə uyğunlaşma tələb edir. Bu baxımdan, kommersiya bacarıqları və sahibkarlıq ruhu, analitik bacarıqlar, emosional dayanıqlılıq, yüksək səviyyədə özünüdərk, ağıllı qərarlar qəbul etmək qabiliyyəti, dürüstlük və etimad İR mütəxəssisindən tələb olunan əsas keyfiyyətlərdir, - deyə, Azercell prezidenti bildirib. Azercell prezidentinin sessiyadakı çıxışı transformasiya liderliyi və dəyişikliklərin idarə edilməsi ilə bağlı fikirləri ətrafında auditoriyanın çoxsaylı suallarının yönəlməsinə səbəb olub.

Onu da qeyd edək ki, ”BIHRF” çərçivəsində keçirilən ”HR Awards” 2022 mükafatlandırma mərasimi zamanı Azercell şirkətinin İnsan Kapitalının İdarə Edilməsi departamentinin əməkdaşları ”Ən Yaxşı Sağlamlıq və İşçi Rifahı Strategiyası” və ”Ən Yaxşı Təlim və İnkişaf Strategiyası” nominasiyalarında iki yüksək nailiyyət sertifikatı ilə təltif olunub.

**ELAN**
**OSMANİYE BİRİNCİ AİLƏ MƏHKƏMƏSİNDƏN**

**Əsas nömrəsi** : 2017/587 Əsas
**Qərar nömrəsi** : 2018/837

CAVABDEH: Doğum tarixi 05/10/1971 və doğum yeri Yardımlı olan RÜBABE DEMİRTAŞ (RÜBABƏ DEMİRTAŞ) (atasının adı: Ejder (Əldər) və Adile (Adilə) qızı, Səməd Vurğun küç. No. 94 Bakı/Azərbaycan).

İddiaçı AHMET DEMİRTAŞ tərəfindən cavabdeh RÜBABE DEMİRTAŞ əleyhinə məhkəməmzidə qaldırılan Tanıma və İcra məhkəmə işinin edilən açıq mühakiməsi nəticəsində:

Cavabdeh tərəfin bildirdiyi bütün ünvanlara bildiriş edilmiş, lakin edilən bütün bildirişlər geriyə qayıtmışdır, məhkəməmizin qərarının bildiriş yolu ilə verilməsi qərara alınıb.

**HÖKM:**

1- Məhkəmə işinin qəbulu ilə Şanlıurfa şəhəri, Birecik rayonu, Kurtuluş məhəlləsi/kəndi cild no. 03, xana no. 45, 456 BSN (fərdi sıra nömrəsi): 46-da qeydiyyatda olan, doğum tarixi 23/04/1984 və doğum yeri Osmaniye olan, Ahmet Demirtaş (Süleyman və Nevber oğlu) və doğum tarixi 05/10/1971 və doğum yeri Yardımlı olan, Rübabe Demirtaş (RÜBABƏ DEMİRTAŞ) (atasının adı: Ejder (Əldər) və Adile (Adilə) qızı, Yardımlı rayonu Azərbaycan Respublikası vətəndaşı olan Rübabe Demirtaşın (Ataşova) nigahın pozulması ilə bağlı Azərbaycan Respublikasının verdiyi AZ-I no. 226723 sənəd nömrəsi olan və 28/03/2017-ci il tarixdə dəqiqləşən elanın TANINMASINA VƏ İCRA EDİLMƏSİNƏ,

2- İddiaçının qaldırmış olduğu mühakimə xərclərinin öz öhdəsinə buraxılması,

3- Əvvəlcədən alınan rüsumun tutulması ilə başqa rüsumun tutulmasına ehtiyac olmadığı,

4- Məhkəməmiz qərar dəqiqləşdikdə və tələb edildiyi halda xərclər üçün ayrılmış avansın geri qaytarılması,

5- Məhkəməmiz qərar dəqiqləşdikdə və tələb edildiyi halda xərclər üçün ayrılmış avansın geri qaytarılması

ilə bağlı İddiaçının vəkili iştirakında cavabdehin olmaması halında, əsaslandırılmış qərarın bildirilməsindən sonra 2 həftə ərzində Adana Regional Ədliyyə Məhkəməsində verilən qərar qanuni apellyasiya yolu açıq olmaqla, aydın şəkildə oxunmuş və lazımi qaydada izah edilmişdir.

Bildiriş yerinə keçməsi üçün elan yolu ilə bildiriş edilir. 18/10/2021

**Katib 134973** **Hakim 220764**

## Azercell 4G metroda səninlə!

Bakı metropolitenin 24 stansiyası və tunelləri lider mobil operatorun şəbəkəsi ilə əhatə olunub




**”Bağlantını asanlaşdırır, həyatı daha doğun edirik” strateji məqsədi ilə fəaliyyətinin yeni dönəminə qədəm qoyan Azercell abunəçilərini yüksəksürətli mobil internet xidmətləri ilə təmin etməyə davam edir.**

Lider mobil operator Bakı metropolitenində bu istiqamətdə apardığı işləri yekunlaşdıraraq iki il davam edən layihə nəticəsində metropolitenin 24 stansiyasını və tunellərini 4G şəbəkəsi ilə əhatə edib. Beləliklə, Azercell abunəçiləri hətta qatarın hərəkətdə olduğu zaman da dayanmadan mobil internet xidmətlərindən yararlanaraq dostları ilə yazışa, videolar izləyə və musiqi dinləyə bilərlər.

Azercell-in 4G şəbəkəsi Neftçilər, Qara Qarayev, Koroğlu, Həzi Aslanov, Əhmədli, Xalqlar dostluğu, Ulduz, Nəriman Nərimanov, Gənclik, 28 may, Nizami, Elmlər Akademiyası, İnşaatçılar, 20 yanvar, Memar Əcəmi, Memar Əcəmi 2 (Bənövşəyi xətt), Avtovağzal, Nəsimi, Azadlıq prospekti, Dərnəgül, Cəfər Cabbarlı, Xətai, Sahil və İçəri şəhər stansiyalarında, eləcə də bu stansiyaların tunellərində aktivdir.

*Qeyd edək ki, Azercell Bakı metropolitenində şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi üzrə işlərə 2019-cu ilin dekabr ayında start verib. Artıq 2020-ci ilin rübündə sərnişin sayının daha çox olduğu mərkəzi metro stansiyalarında işlər tamamlanıb. Belə ki, layihənin ilk mərhələsində Gənclik, 28 May, Elmlər Akademiyası və Nizami metro stansiyaları Azercell-in yüksək keyfiyyətli şəbəkəsi ilə təmin olunub.*

*Xatırladaq ki, dünya miqyaslı telekommunikasiya şirkəti olan Ericsson-un apardığı bençmarkinq araşdırmalarına əsasən, Azercell-in şəbəkəsi bir çox keyfiyyət göstəricilərinə görə dünya üzrə yüksək nəticə nümayiş etdirməklə ”Best in class” kateqoriyasına daxil olub.*

## “Azərbaycanın parlayan ulduzu Ayaz Babayev idi"

Röya Nahidə Babaşlının qalibiyyəti ilə barışmayıb



**Müğənni Hiss ”Altın Kelebek” mükafatı ətrafında diqqət çəkən açıqlama verib.**

”Şərq”in məlumatına görə, ”Şou-rum” verilişinə danışan Hiss ləqəbli Röya Məmmədova həmkarı Nahidə Babaşlının qalibiyyəti ilə barışmayıb: ”O, Azərbaycanın parlayan ulduzu deyil. Mahnıları türk dilindədir, Türkiyənin parlayan ulduzu ola bilər. Orda çox yaxşı dinləyiciləri, baxışı var. Həmin yarışda Azərbaycanın parlayan ulduzu Ayaz Babayev idi”.

*Qeyd edək ki, 2021-ci ildə Türkiyənin nüfuzlu ”Altın Kelebek” müsabiqəsində ”Azərbaycanın gənc ulduzu” kateqoriyası üzrə qalib Nahidə Babaşlı olub.*

**Aygün Tahir**

**Elan**

Həşimov Teymur Nizami oğlunun adına ”Azərişıq” ASC tərəfindən verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Umarov Nadir Osman oğluna Azərbaycan Respublikası, Dövlət Əmlak Komitəsi tərəfindən 02.12.1998-ci ildə verilmiş özəlləşdirilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələri üzərində mülkiyyət hüququnu təsdiq edən Şəhadətnamə, Dövlət Əmlakının hüquqi və fiziki şəxslərə satılması haqqında 22.04.1998-ci ildə verilmiş Şəhadətnamə və Dövlət Əmlakının İnventarlaşması İdarəsi tərəfindən 09.01.1998-ci ildə verilmiş texniki pasport itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 350



## 15 milyonluq miras...

Övladlığa götürdüyü şəxsə verəcək

**Macar əsilli mərhum Hollivud ulduzu Ja Ja Qaborun sonuncu, 9-cu həyat yoldaşı Frederik Prins von Anhalt ölümündən sonra mirasını buraxa biləcəyi bir kimsəsi olmadığı üçün maraqlı addım atıb.**

Axşam.az xəbər verir ki, şahzadə Frederik titulunu və 15 milyon funt-sterlinq dəyərində mirasını vəsiyyət edə bilmək üçün 27 yaşlı Kevin adlı alman əsilli oğlanı övladlığa götürüb. Kevin şahzadənin dostunun oğludur və razılaşmaya əsasən, o, qocaldıqdan sonra edə bilmədiyi işləri görəcək, həmçinin xəstələnəndə və ömrünün son günlərində ona baxacaq.

*Qeyd edək ki, Frederik özü də Almaniyada polis ailəsində dünyaya gəlib. O, 1979-cu ildə alman şahzadəsi Auguste von Anhalt tərəfindən övladlığa götürüldükdən sonra 35 yaşında şahzadə titulu alıb.*

## "Biz hamımız ölüyük"

24 saat ərzində ən çox izlənilən 3-cü serial oldu



**Yanvarın 28-dən yayımlanan Koreya istehsalı "Biz hamımız ölüyük" ("All of us are dead") serialı 24 saat ərzində ən çox baxılanlar sırasına lider etməyə bacarıb.**

Axşam.az xəbər verir ki, "FlixPatrol" data analitikda yer alan göstəriciyə görə "Netflix" platformasında yayımlanan ekran işi 25-dən çox ölkədə ən çox izlənən serial olub.

"Hellbound", "The Squid Game" kimi layihələrdən sonra bu ünvanı qazanan serialın baş rollarını Yun Canq-Yonq, Pak Çi-hu, Ço I-hon, Pak Solomon, Yu In-su, An Syn-gyun canlandırır. Ekran işi dram, komediya, qorxu janrlarını özündə birləşdirir.

## Acun qızına 900 minlik hədiyyə edib



**Türkiyəli iş adamı, "TV8" telekanalının sahibi Acun Ilıcalı böyük qızı Banuya etdiyi jestlə gündəmə gəlib.**

**Axşam.az əbər verir ki, Ilıcalı övladına doğum günündə avtomobil hədiyyə edib.**

**Banunun "Range Rover" markalı avtomobilinin 900 min lirə olduğu məlum olub.**

***Qeyd edək ki, Banu Acunun ilk həyat yoldaşı Seda Başbuğdan olan qızıdır.***

## 20 il sonra bacı və qardaşları olduğunu öyrəndi







**BBC-nin aparıcısı və "X-Factor" yarışmasının keçmiş iştirakçısı Eşli Con-Baptist 20 yaşında bacı və qardaşlarının olduğunu öyrənib. Bu barədə onun özü danışıb.**

**Oxu.az xəbər verir ki, jurnalistin sözlərinə görə, iki yaşından himayədar ailələrdə böyüyüb. "18 yaşın olmamış beş fərqli ev arasında dolaşmağın necə bir şey olduğunu təsvir etmək mümkün deyil. Məndə heç vaxt ailə və nəyəsə aidiyyət hissi olmayıb", - deyə jurnalist etiraf edib. Lakin bir müddət əvvəl haqqında heç nə bilmədiyi qardaşı onunla "Facebook"da əlaqə saxlayıb və deyib ki, jurnalistin ondan əlavə daha iki qardaşı və bir bacısı var. "Bu, tamamilə dəlilik idi, çünki mən heç kimimin olmadığını düşünürdüm", - deyə Con Baptist bildirib. "Övladlığa götürülməyiniz bacı-qardaşlarınızın olma ehtimalını istisna etmir, lakin heç kim mütləq şəkildə bunu sizə demir. Amma əminəm ki, hamı kim olduğunu və kiminlə bağlı olduğunu bilmək istəyir", - deyə Con-Baptist sözlərini yekunlaşdırıb.**

## TRT 1-in məşhur yarışçısı intihar etdi



**TRT 1-də yayımlanan "Bizim köyün kızları" layihəsinin iştirakçısı Kübra Ece intihar edib.**

**Olay xəbər verir ki, məşhur yarışçı özünü 4-cü mərtəbədən atıb.**

**Nişanlısı ilə evlilik hazırlıqlarında olan Kübranın gələcək ərini evində başqa bir qadınla çılpaq şəkildə yaxaladığı bildirilir. Eyni zamanda gənc qızın intiharının cinayət olma ehtimalı da iddia olunub.**





# Bakının it bazarı...

## Ən çox satılan pitbull və avçarkalardır

**Çəkisi və görünüşü ilə fərqlənən itlərin 400-dən çox cinsi var. Cins baxımından fərqli xüsusiyyətlərə malik itlər pişiklərdən sonra ən çox bəslənən ev heyvanları arasında ikinci yerdədir. Onların bir sıra özünəməxsus xüsusiyyətləri olur. İtlər də insanlar kimi yetişdirilə və inkişaf etdirilə bilər.**

Onlar qoxulara qarşı həssasdırlar. İnsanlarla çox yaxşı dost olmaqdan əlavə, müxtəlif məqsədlər üçün də istifadə olunan itlər də var. Xüsusilə polis itlərinin iybilmə qabiliyyəti yaxşı olduğu üçün bir çox qoxuları ayırd edə bilirlər. İt sadiqlik, yoldaşlıq və qayğı baxımından da ən çox seçilən ev heyvanıdır. Dünya ölkələri arasında Fransa itlərə xüsusi münasibəti ilə seçilir. Buradakı restoranlarda, otellərdə, yollarda, eləcə də metrolarda itlərə rast gəlinir. Elə bu səbəbdən paytaxt Paris tez-tez it dostluğunun paytaxtı kimi göstərilir.

Heyvanların pulla alınıb-satılması nə qədər bəyənilməsə də, yaşadığımız kapitalizm dünyasında belə bir reallıq mövcuddur. Elə biz də bu reallığı nəzərə alaraq həmkarım Xanlarla paytaxt ərazisində itlərin satıldığı məkanların axtarışına çıxdıq. Xeyli soraqlaşdıqdan sonra paytaxt sakinləri tərəfindən ən çox adı sadalanan Sabunçu it bazarına yol aldıq. Bura avtomobillərlə insanların yanaşı addımladığı, kənardan kiçik, bir o qədər dağınıq görünən bir məkandır. Bazarda müxtəlif qiymətlərə və cinslərdə itlərə rast gəlmək mümkündür. Deyilənə görə, it almaq istəyənlər mütləq yollarını buradan salırlar.

**Bazar haqqında ətraflı məlumat almaq üçün elə qarşımıza çıxan ilk satıcı Kamil Məmmədovla həmsöhbət olduq.**

Ondan it bazarının fəaliyyət göstərdiyi vaxtları, satışdan əldə olunan gəlirin miqdarını, hansı növ itlərə daha çox tələbat olduğunu, itlərə necə qulluq edildiyini və s. soruşduq. K.Məmmədov əvvəla özünün satış üçün bazara gətirdiyi pitbull cinsli itlər haqqında məlumat verdi: "Qiymətlər itlərə görə dəyişir. Pitbullar 300 manatdan başlayır, ən aşağı yeri 200 manatdır. Bunlar Dağıstandan gətirilib. Bazarda ən çox satılan it növləri hazırda pitbull və avçarkalardır. Bu növlərin qidalanmasında xüsusi yeməklərindən, toyuq ayaqları və qanadlarından, eləcə də qoyunun boyun ətindən istifadə olunur. Bütün bunlar itlərə bişmiş şəkildə verilməlidir. Çiy ət qətiyyən vermək olmaz. Çünki quduzluq əmələ gətirir".





**"Rusiya və Türkiyədən də itlər gətirilir, qiymətlər 1500 manatdır, amma..."**





**Satıcının sözlərinə görə, bazardakı itlərin dərmanlanması, iynələnməsi vaxtaşırı olmalıdır ki, heyvanlar quduzlaşmasın:** "Bura yalnız həftənin bazar günləri səhər saatlarında fəaliyyət göstərir. Satışdan əldə edilən gəlir o qədər yüksək deyil. Mən özüm daha çox sosial şəbəkələr vasitəsilə satış edə bilirəm. İtlərin saxlanması çox əziyyət və xərc tələb edir. Alıcılar yay mövsümündə daha bol olur".

*(Davamı səh: 7-də)*

**Günəş Mərd,**
**Xanlar Əlibəy**



# Talibana sığınmış hamilə jurnalistsevindi

## Yeni Zelandiya hökuməti Şarlotta üçün xüsusi karantin otağı ayıracaq

**Talibana sığınmış Yeni Zelandiyalı jurnalist Şarlotta Bellis (Charlotte Bellis) koronavirus pandemiyasının tüğyan etdiyi dönəmdə Əfqanıstanda vəzifəsini icra edirdi.**

Pandemiya səbəbiylə Yeni Zekandiya karantin qaydalarını sərtləşdirdi və ölkəyə giriş-çıxış məhdudlaşdırıldı. Ölkəsinə qayıda bilməyən Şarlotta əlacsız şəkildə Talibana qruplaşmasına sığındı. "HaberTürk"ün məlumatına görə Yeni Zelandiya hökuməti jurnalist xanımın ölkəsinə qayıda bilməsi üçün çalışmalara başlayıb. Jurnalist xanım ölkəsinə qayıda biləcək. Yeni Zelandiya hökumətə Şarlottaya ölkəsinə qayıda biləcəyini xəbər verib. Bu vaxta qədərsə hökumət ölkəyə qayıdan vətəndaşların karantin altında saxlandığı otellərdə boş yer olmadığını əsas gətirərək Şarlottanın dönüş üçün uyğun zamana ehtyac olduğunu bildirirdi. Lakin xanım jurnalistin həyat hekayəsinə beynəlxalq mediada geniş yer verildikdən sonra Yeni Zelandiya baş nazirinin köməkçisi Qrant Robertson jurnalistə bir otaq ayrıla biləcəyini açıqladı. Bu xəbər Şaplottanı təbii ki, hədsiz sevindirib. Şarlotta 29 həftəlik hamilədir. "Qızımı Vətəndə dünyaya gətirmək istəyirəm. Mart ayının əvvəllərində Yeni Zelandiyaya döncəyəm. Nəhayət evimə qayıdacağam, aləm və dostlarımla birlikdə olacağım üçün çox həyəcanlıyam", söyləyən Şarlotta hökumətin sərhəd nəzarəti siyasətini ağır şəkildə tənqid edəcəyini də deyib.

**Məlahət**

## 7 dollara satılacaq

Mobil telefonda koronavirusu aşkar edən test hazırlanıb



**ABŞ-ın Kaliforniya Universitetinin alimləri sadəcə mobil proqramdan istifadə edən yeni "Covid-19" test sistemi hazırlayıblar.**

"Şərq" xarici KİV-ə istinadən xəbər verir ki, mütəxəssislər "smaRT-LAMP" adlı testin xəstəxanaya giriş imkanı olmayan və evdən çıxa bilməyən insanlar üçün asan bir üsul olacağını bildiriblər. Tədqiqatçılar bu testin standart PZR testi qədər dəqiq olduğunu iddia ediblər. Onlar tətbiqin adının "smaRT-LAMP" olacağını və bunun 7 dollara satıla biləcəyini qeyd ediblər. Bu test üçün smartfonda "Bacticount" adlı proqram və test dəsti tələb olunur. Testdən istifadə etmək üçün ağız boşluğundan götürülən yaxma nümunəsini test dəstinə yerləşdirmək lazımdır. Nümunənin üzərinə reaktiv məhlul əlavə edildikdən sonra LED işığı olan karton qutu ilə örtülməlidir. Smartfonun kamerası LED işıqlarına yönəldildikdə, rəng reaksiyalarına görə nəticənin "Covid-19" üçün müsbət olub-olmadığı məlum olur. Tətbiq parlaq qırmızı işıq göstərirsə, nəticə müsbətdir. Hazırda tədqiqat yalnız 50 nəfərlik bir qrup üzərində aparılıb. Lakin tədqiqatçılar nəticələrin ümidverici olduğuna əmin olduqlarını söyləyiblər.

**Çimnaz Şahlar**

## Dəlixanadan qaçdı, timsaha yem oldu...



**Zimbabvenin Masvingo şəhərindəki psixiatriya xəstəxanasının pasiyenti klinikadan qaçıb və Tuqvi çayını keçərkən timsah tərəfindən yeyilib. Virtualaz.org xəbər verir ki, bu barədə "Zimbabwe News" xəbər verir.**

Qeyd olunur ki, klinika əməkdaşları xəstənin qaçışından təxminən on dəqiqə sonra, palatalara dərman paylayarkən xəbər tutub və dərhal polisə müraciət edib. Qaçışdan yarım saat sonra yerli sakinlərdən biri timsahlarla dolu çayı keçməyə çalışan və xəstəxana paltarında olan bir şəxsi gördüyü barədə polisə məlumat verib. O, deyib ki, timsah həmin şəxsi suyun altına aparıb. Polis göstərilən yerə gedib və orada xəstənin paltarını taparaq, qalıqlarını axtarmağa başlayıb.